Sur başqa bir məqaləsində isə ermənilərin "separatizm" ideyasının mahiyyətini ifşa etmişdir. Separatizmin humanizmə zidd olduğunu irəli sürən Sur yazırdı ki, erməni daşnakçılarının Qafqazda bu çür çirkin oyunlar oynaması təsadüfi deyil. Burada əsas məqsəd bəzi bölgələrdə iç-içə yaşayan ermənləri türkləri qarşı qoymaq və türkləri öz doğma yurd-yuvalarından didərgin salmaqdır. O, yazırdı: "Bilməm, bəlkə "separatizm" (ayrılıq) istəyir-siniz? Böylə isə bu başqa məsələ.Əfəndim bunda da yanlış gediyorsunuz. Bu heç mümkün deyil!.. Qafqasiyamızda sizin üçün separatizm əsla mümkün deyil. Qafqasiyada bu fikrə səfsətəpərdaz daşnaksütyun yazıçılarından başqa heç kim düşməz. Bu fikrə qoyun laməhalə gürcülər ilə dağıstanlılar düşsünlər ki, onlar başqa millətlərlə qarışıq deyil, deyiləcək dərəcədə top yaşyırlar. Məvərayi-Qafqasiyada isə müsəlmanlar ilə ermənilər qarışıqdırlar. Nə müsəlmanlar ermənilərin içindən çıxıb torpaqlarını ermənilərə verib bir tərəfə çəkilməzlər, nə də ermənilər eylə yapmazlar" (Sur 1906, "İrşad" qəzeti, № 50).

Cəlal Qasımova görə Surun bu mülahizəsi öz dövrü üçün prinsipcə doğru mülahizə idi.

C.Qasımov yazır: "Nəzəri baxımdan burada elə bir yanlışlıq yoxdur. Hətta maraqlıdır ki, dünya təcrübəsi də bu amilin doğruluğunu sübut edir. A.Sur da lazımi dəlillər gətirir. Yazır ki, İsveçrə də nemeslər ilə firənglər, macarlar ilə də nemeslər çox yaxşı, rahat yaşayırlar. Lakin açınacaqlı olsa da, son illərin hadisələri dünya təcrübəsinin əleyhinə olan faktları da ortaya çıxardı. Eyni zamanda, A.Surun millətlərin qarışıq halda yaşamaları barədəki elmi nəticəsi, təəssüf ki, zərbə altında qaldı. İndi Ermənistan ərazisində bir nəfər də olsun azərbaycanlı qalmamışdır" (Qasımov 2004, 60-61).

Erməni millətçilərinin separatizm ideyasının arxasında gizlənən niyyətlərini ustalıqla ifşa edən A.Sur yazırdı ki, türklərin bəlli ərazilərdən, xüsusilə də İrəvan və ətrafdakı yurd-yuvalarından köç etdirilməsi əvvəlcədən planlaşdırlmışdır. O, yazırdı: "Daşnaksütyunçular! Çox bildiyinizdən özünüzü itirmişsiniz. Bir azca özünüzə gəlin!Separatizm Qafqasiyada sizin üçün müyəssərmi? Xoruzun quyruğu görünməyə başladı. Siz daşnaksütyunçular "separatizm"ə çalışyor imiş! Bəli! Zənnimcə, erməni qövmi ilə müsəlman qövmi bir bəhanə ilə çırpışdırıb ermənilər "Qars" oblastı ilə "İrəvan" vilayətinə toplarsız. Oradakı müsəlmanları da Gəncə, Bakı vilayətlərinə qaçmağa məcbur edərsiz. O vəqt erməni qövmünü Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayətinə toplarsınız. Sonra da hökumət ilə çırpışıb separatizmə nail olarsınız. Digər tərəfdən də Samsun, Zeytun, Muş, Van, Səlmas ermənilər də sizə iltihaq edərlər, məramnıza çatarsınız. "Böyük Ermənistan" dövlətini təşkil etmiş olarsınız. Katalikosunuz da məşhur arzusuna çatar: "Ermənistan padşahına dualar oxuyar, onun başına öz əli ilə tac qoyar!".Xeyir olsun, yaxşı yuxudur! Dadlı umaşdır! Əfsus ki, qaşığı yanında deyil!"(Sur 1906, "İrşad" qəzeti, № 50).

Sur bu məqalələrində 20-ci əsrin əvvəllərində aş vermiş erməni-müsəlman münaqişələrinin mahiyyətini, o cümlədən "erməni xisləti"nin fəlsəfəsini açıb göstərməyə çalışmışdır. Buradan aydın olunur ki, "Türkyə hüdudunda Qars oblastı ilə İrəvan vilayəti"nin türklərdən təmizlənməsi təsadüfi olmamış, gələcəkdə bu torpaqların hesabına "erməni dövləti"nin yaranmasına zəminlər yaradılmışdır.

**A.Surun "Türk ədəbiyyatına bir nəzər" fundamental əsəri və ədəbi-tənqidi görüşləri**

Abdulla Surun ədəbi-tənqidi görüşlərini öyrənmək də çox vacibdir. Onun ədəbi-tənqidi görüşlərini araşdıranlar arasında Əbülfəz İbadoğlu, Kamran Əliyev, Kamal Talıbzadə, Cəlal Qasımov, Mehdi Gəncəli və başqaları olmuşdur.

Akademik Kamal Talıbzadə hesab edir ki, Abdulla Surun ədəbiyyat tarixinə həsr olunmuş məqalələrinin o zaman üçün müasir əhəmiyyəti böyük idi: "O, klassik irsi təbliğ və təhlil etmək yolu ilə, eyni zamanda ədəbi inkişafa kömək edirdi. Ədəbiyyatda ideyalılıq, elm ilə sənətin əlaqəsi, novatorluq, təqlidçilik və onun ziyanları, həyatı doğru əks etdirmək və s. kimi məsələlər onun bu məqalələrində yeri gəldikcə izah olunurdu" (Talıbzadə 1984, 222).

Akademik İsa Həbibbəyli "Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri" məqaləsində yazır ki, XX əsrin əvvəllərində ədəbiyyat tarixçiliyi istiqamətində araşdırmaların genişləndirilməsi Azərbaycan cəmiyyətində xalqın milli-mənəvi özünüdərk proseslərinin genişlənməkdə olması ilə əlaqədar idi: "Yazıçı və şairlərin milli-mənəvi özünüdərk və oyanış sahəsində ədəbiyyatda həyata keçirdikləri böyük işi tənqidçi və ədəbiyyatşünaslar elmi-nəzəri və ədəbi-tarixi əsərlərin yazılması ilə yerinə yetirirdilər. Bu dövrdə yazıçıların da həmin proseslərə qoşulması ilə elmi-ədəbi mühitdə yazıçı-ədəbiyyatşünas, şair-tənqidçi formatında yaradıcı qüvvələr formalaşmışdır. Şair - ədəbiyyatşünas kimi çıxış edən Abdulla Surun bədii yaradıcılıqla eyni səviyyədə ədəbiyyatşünaslıq fəaliyyəti ilə də ardıcıl məşğul olması və araşdırmalarında ədəbiyyat tarixçiliyinə üstünlük verməsi onun cəmiyyətdə və ədəbiyyatda getməkdə olan milli-mənəvi özünüdərk proseslərində daha geniş miqyasda iştirak etməsinin nəticəsi idi. Bu baxımdan Abdulla Surun "Füyuzat" jurnalında 1907-ci ildə

çap olunmuş "Füzuliyə bir nəzər" adlı məqaləsi "Azərbaycanda Füzuli araşdırmalarının təməli"hesab olunur. Bundan başqa, Abdulla Surun "Türk ədəbiyyatına bir nəzər", "Ədəbiyyati Osmaniyyə" kitabları da ədəbiyyat tarixi istiqamətində yazılmış elmi araşdırmalardan ibarət olub, ayrı-ayrı dövrlərdə yaşayıb-yaratmış yazıçı və şairlərimizi yeni nəsillərə tanıtmağa xidmət edir"(Həbibbəyli 2022, "525-ci qəzet" qəzeti, 2022, s.14,15,19).

Surun İstanbulda yaşadığı dövrdə qələmə aldığı "Türk ədəbiyyatına bir nəzər" əsərinin ümumTürk ədəbiyyatında, o cümlədən Azərbaycan ədəbiyyatında və ədəbi-tənqidi sahədə özünəməxsus yeri vardır. Bununla bağlı tədqiqatçı Cəlal Qasımov yazır: "Gənc alim "Türk ədəbiyyatına bir nəzər" adlı 1000 səhifəlik əsərini də İstanbulda tamamlayır. Həmin il (1908-ci il – F.Ə.) A.Sur əsəri "Molla Nəsrəddin" jurnalına təqdim edir" (Qasımov 2004, 20). Bununla bağlı doğrudan da, 1908-ci ilin sonlarında "Tərcüman" qəzetində və "Molla Nəsrəddin" jurnalında xəbərlər getmişdir.

"Molla Nəsrəddin" jurnalının14 dekabr 1908-ci ildə işıq üzü görən 50-ci sayısında Surun "Türk ədəbiyyatına bir nəzər"əsərinin nəşr olunacağı müjdəsi ilə bağlı məlumat getmişdir: "Gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" nam əsəri 1909-cu il fevralın ibtidasından etibarən hər ay başında bir risalə şəklində nəşrə başlanacaq. 25 risalədən ibraət olan bu əsər üç cild üzrə min səhifəlik ədəbi bir əsərdir. Türk ədəbiyyatının dövri-ətiq, dövri-təcəddüd və dövri-cədidinə dair tarixi, ictimai, ədəbi məlumatlar verəcək" ("Molla Nəsrəddin" jurnalı, 1908-ci il, № 50).

Krımda-Bağçasarayda nəşr olunan "Tərcüman" qəzetində bu ədəbi hadisəni "Ədəbiyyat-ı Osmaniyyə"(Yeri gəlmişkən, bu başlıqdan dolayı A.Surun "Türk ədəbiyyatına bir nəzər" əsəri ilə yanaşı, "Ədəbiyyat-ı Osmaniyyə" adlı başqa bir kitabının olduğunu iddia edənlər də var. Halbuki burada söhbət eyni bir əsərdən gedir- F.Ə.) adlı başlıqda xəbər verən tanınmış dövlət xadimi, mütəfəkkir Nəsib bəy Yusifbəyli hesab edirdi ki, naşiri olacağı bu kitab Türk aləmi üçün çox dəyərli bir əsərdir. N.Yusifbəyli yazırdı: "İstanbulda üdəbayi-məşhurədən Əhməd Hikmət və filosof doktor Rza Tofiq bəylərin xüsusi şagirdlərindən gəncəli Məhəmmədzadə Abdulla Tofiq əfəndinin "Türk ədəbiyyatına bir nəzər" əsəri-cəsimini bu ünvan altında böyüklü-küçüklü yigirmi beş risalə şəklində gələcək 1909 sənəsi fevralın ibtidasından etibarən nəşrə başlayacağam. Risalənin hər biri böyücək qitədə 40-200 səhifədən mütəşəkkil olub nəfis kağız üzərində gözəl hürufat ilə basılacaqdır. Sıra ilə ayda bir olaraq şu risalələr nəşr ediləcəkdir: 1) Səttar paşa, 2) Füzuli, 3) Baqi, 4) Nəfi, 5) Səbri, 6) Nabi, 7) Nədim, 8) Rağib paşa, 9) Şeyx Qalib, 10) Akif paşa, 11) Şinasi, 12) Ziya paşa, 13) Kamal bəy ilə Əbüzziya, 14) Hamid bəy ilə Mehrənisə xanım və Əbdühəlim Məmduh bəy, 15) Əkrəm bəy ilə Tahir bəy, 16) Müəllim Naci ilə Əhməd Midhət, 17) Tofiq Fikrət, 18) Nigar xanım ilə Fatma Əleyh və Məqbulə Ləman xanımlar, 19) Səfa bəy, 20) Üşşaqizadə Xalid Ziya, 21) Hüseyn Rəhmi ilə Səfvət və Nəzihi bəylər, 22) Əhməd Hikmət bəy, Məhəmməd Əmin Yurdaqul bəy, 24) Rza Tofiq ilə Fuad bəy və Ehsan xanım, 25) Abdullah Zöhti bəy... "Türk ədəbiyyatına bir nəzər" həman üç min bir qədər səhifəlik əsər olub, isimləri zikr olunan üdəba və şüəra ilə (bir kaçından maəda) daha bir çok səlatini-Osmaniyyənin rəsimləri ilə bəzədiləcəkdir" ("Tərcüman" qəzeti, 1908, № 81).

Ancaq çox təəssüf ki, Surun həmin əsərinin nəşri nəzərdə tutulan tarxdə baş tutmamışdır. Sur özü bununla bağlı yazırdı ki, kitabın nəşr olunmamasına səbəb Əhməd Hikmətin əsərə yazacağı girişin gecikməsi, lazımlı bəzi kitabların İstanbuldan cəlbi və digər əlavələrlə bağlı olmuşdur. O ümid etsə də ki, bu məsələlərin həllindən sonra kitab nəşr olunacaq, lakin onun bu arzusu gerçəkləşməmişdir (Məhəmmədzadə 1909, № 55).

Bütün hallarda o, Türk ədəbiyyatı, o cümlədən Qafqaz Türk ədəbiyyatı tarixi ilə müntəzəm məşğul olmuşdur. Bu baxımdan çağdaşlarından Əli Nəzmi onu "Qafqaz ədəbiyyatının anası" adlandırmışdır (Nəzmi 1912, "İqbal" qəzeti. №93).

Kamal Talıbzadə isə Surun "Türk ədəbiyyatına bir nəzər" kitabı ilə bağlı yazırdı:

“1000 səhifədən və üç cilddən ibarət olan bu əsərin əldə qalmış bəzi fraqmentləri təsdiq edir ki, bir ədəbiyyat tarixi kimi o, həmin dövrdə yazılmş ədəbiyyat tarixlərindən elmi-nəzəri cəhətdən daha üstün imiş” (Talıbzadə 1978, 270).

Onun “Türk ədəbiyyatına bir nəzər” kitabında yer alması nəzərdə tutulan vəədəbi-tənqidi məqalələri arasında yer alan “Füzuliyə bir nəzər”dir. Sur yazırdı ki, Füzulinin şeirlərinin dilində azərbaycanlılığın-türklüyün hiss olunması, əcdadımızın Azərbaycan türklərindən olması haqqında əsaslı zənn vermişdir (Araslı 1998, 320).Kamal Talıbzadə hesab edir ki, ““Füzuliyə bir nəzər” məqaləsində Sur öz qarşısına böyük Azərbayca şairinin bədii yaradıcılığını təhlil etmək məqsədini qoymuşdu: “Müəllif özünəməxsus ümumiləşdirmə yolu ilə şairin həyat və yaradıcılığı haqqında maraqlı, yeni fikirlər söyləmiş, ədəbi irsə qiymət verməyin müasir yolunu göstərmişdir” (Talıbzadə 1978, 278).

Sur həmin məqaləsində hər şeydən öncə hesab etmişdir ki, “Füzuli lisanında məfulibihlər ilə bəzi siqeyi-feliyyələrdə azərbaycançılığın hiss olunması əcdadının Azərbaycan türklərindən olması haqqında bir zənn veriyor” (Sur 1907, “Füyuzat” jurnalı, № 31). Sura görə, Türk ədəbiyyatının nəsr müəssisi Sinan paşa olduğu kimi, nəzmcə müəssisi də Məhəmməd Füzulidir (Sur 1907, “Füyuzat” jurnalı, № 30).

“Türk dili üzrə ilk dəfə mərsiyə yazan Füzulidir”(Sur 1907, “Füyuzat” jurnalı, № 30) mülahizəsini də irəli sürən Sura görə, alim Füzuli ilə şair Füzuliyə vəhdətdə baxmaq lazımdır. Sur yazırdı: “Füzuli şeirə intixab etmədən ikmali-təhsilə çalışdı. Elində, günündə mövcud əqli, nəqli ülum və fununu təlim elədi. Həm alim, həm şair oldu. Çünki o, “elmsiz şeir əsası yaş divar olur, əsassız duvar qayətdə bietibar olur” qanununu kəndinə düsturi-məşrəb edən şairlərdən olmaq istəyirdi” (Sur 1907, “Füyuzat” jurnalı, № 30).

Sur, Füzulinin “Leyli və Məcnun” əsəri haqqında yazırdı: “Sənətpərdazənə yazılan bu əsər sənət və səlasət nöqteyi-nəzərindən qeyd oluna bilər. Ruhşünasanə bir rəz ilə bundan bir çox gizli-gizli eşq pərdələri rəngin-rəngin sevda səhifələri nəşr edilmişdir” (Sur 1907, “Füyuzat” jurnalı, № 31).

O, Füzulinin həcvdən uzaq olmasını yüksək dəyərləndirmişdir. Sur yazırdı: ““Füzuli, istəməm əşarü mədhü zəmm. Mən aşiqəm, həmi. Sözüm aşiqanədir” - deyir. Füzuli qəsdən mədh və zəmmə göz ilişəcək dərəcədə yaxınlaşmadı. Hələ həcvə heç-heç yaxın durmadı, demək ki, ədəbsiz ədibin dəfinə üzərində yatan yatağana (əfi ilana) bənzədiyini biliyormuş da hissi-əxlaq şairlər kimi bu münasibətsizlikdən qaçıyormuş” (Sur 1907, “Füyuzat” jurnalı, № 31).

Ümumiyyətlə, A.Sur istər “Füzuliyə bir nəzər”, istərsə də digər əsərlərində sənətkarın, mütəfəkkirin yüksək əxlaqa sahib olmasına mühüm əhəmiyyət vermişdir. A.Surun fikrincə, bədii əsərin dəyəri bəlağətli, parıltılı, qulaq oxşayan dili ilə deyil, dərin məzmunu, həyat həqiqətlərini düzgünmüşahidə və tədqim ilə ölçülür. Sura görə, sənətkar, mütəfəkkir xalqın adət və ənənələrini qorumağa çalışmalı, eyni zamanda, oxucunun və dinləyicinin hissinə, şüuruna, əxlaqına təsir etməlidir. Sənətkar nəinki ayrı-ayrı fərdlərin, sosial qrupların, bütövlükdə toplumun əxlaqına müsbət təsir göstərməlidir. Yalnız bunlara nail olan sənətkar həmişəyaşar, ölməz sənətkara çevrilə bilər (Qasımov 2004, 105). O, “Nəfiyə bir nəzər” məqaləsində yazırdı: “Şair mənsub olduğu qövmün ruhudur, dilidir. Ona hədyan düşünmək, yalan söyləmək heç yakışarmı? Həqiqətpuş məhalannəvis nazim və mühərrirlərə də şairi-müqtədir, ədibi-kamil ünvanlarının verilməsinə cavab verəlim. Kamillər o bəxtiyarlardır ki, əxlaqın tənqid və müvaxizə təzyiqləri arasından purusuz (həmvar) çıxdılar, sağlam qurtuldular. Əsərləri münəqqidanə mütaliyə olunmayanları kor-koranə təqdir etmək, gəlin olacaq qızı görmədən almağa bənzər ki bu xüsusda qayət ehtiyatkaranə davranılmalıdır” (Sur 1909, “Həqiqət” qəzeti, 1909, №3).

Surun fikrincə, əgər sənətkarın əsil-nəcabətinə, həyat və yaradıcılığına dərindən bələd olmasaq, onun doğru, obyektiv dəyərini də verə bilmərik. Bu zaman da, dəyərli bir insanı

dəyərsizləşdirə, ya da əksinə dəyərsiz birini dəyərə mindirə bilərik. O, yazırdı: "Ulu şəxs həqiqətdə fənaların fənası olsun. Biləks bəslədiklərini o adamdan görməzlər isə surəti-hal tərsinə çevrilir, zavallının rəzil, alçaq bir kimsə olduğuna qol qoyarlar. Vəli o zat eyilərin eyisi olsun"(Sur 1909, "Həqiqət" qəzeti, 1909, №2).

Bu baxımdan o, "Sinan paşaya bir nəzər" məqaləsində Sinan paşanın tibbi, riyazi biliklərlə yanaşı, təsəvvüf fəlsəfəsinə bələd olmasını xüsusilə vurğulamışdır. O, yazırdı: "Sinan paşa həm həkim idi, həm riyaziyyatı bilirdi, həm də təsəvvüfü. Bunun üçündür ki, asarında bir mətanəti-fikriyyə, əfkarında bir ələviyyəti-məniyyə qoxusu duyulmaqda və bir təriqəti-sufiyyə, bir taəti-həqaniyə ruhu uçunmaqdadır" (Sur 1907, "Füyuzat" jurnalı, № 28). Bu məqalədən də anlaşılır ki, A.Sur hər hansı mütəfəkkirin istedadlı olması ilə yanaşı, heç də bundan az olmayaraq ali dəyərlərə sahib olmasını vacib hesab etmişdir. Məsələn, Sinan paşanın riyazi, tibbi biliklərlə yanaşı təsəvvüfə bələd olması onun xeyli dərəcədə kamilliyə yaxınlşamasına işarədir. Bu baxımdan o, Sinan paşanın sənət aləmindəki əsas xidmətini "əxlaqiyyət ilə ədəbiyyatı" birləşdirməsində görmüş, onun "Nəsihətnamə", "Tərznamə" və digər əsərlərini yüksək dəyərləndirmişdir (Sur 1907, "Füyuzat" jurnalı, № 28).

Sur haqlı olaraq hesab edirdi ki, hər bir mütəfəkkir, ədib eyni zamanda, öz dövrünün həqiqətlərini olduğu kimi xalqa çatdırmalıdır. Başqa sözlə, cəmiyyətin sosial-siyasi, iqtisadi, mədəni problemlərini obyektiv şəkildə işıqlandırmağı bacarmalıdır. Bu baxımdan o, Nədimə həsr etdiyi məqaləsində yazırdı: "Binaənəleyh Nədimin bu xüsusdakı müvəffəqiyyəti kəndi zamanının halına tərcüman olmuş olması ilə tərif etmək müvəffəq olur... Əsərləri bu gün blə bizə yabançı görünməz və kəmali-zövq ilə mütalib oluna bilər" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577[FR 544]).

Bu anlamda Türk ədəbiyyatının yeniləşməsində mühüm rol oynayan İbrahim Şinasiyə böyük dəyər verən Sur, sözügedən əsərində onu belə xarakterizə etmişdir: "Şinasinin şöhrəti-şaiyəsi ilə asari-ədəbiyyəsi müqayisə edilir də, qiyməti şeiriyyə etibarı ilə o əsərləri nəzəri mühakiməyə alacaq olursa, insan bu zatın ehraz etməli olduğuşöhrəti mübalidəli bulmağa meyyal bulunur. Halbuki Şinasinin böyüklüyü şairliyində deyil, bir kaç əsrlərdən bəri təhəkküm etmiş olan tərzi-şeiri qətiyyən hökmdən isqat edərək əski məbnayi-ədəbiyyatı kökündən sarsıtmış olmasındadır. Əski cəryani-ədəbiyi Avropa zövqünə və şeiri təbiilik vadisinə çevirmiş olmaq kimi himməti-məşkurə ibraz etməsindədir" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577[FR 544]). Sura görə Şinasinin yaradıcılığında üç cəhət: söz, məna və "hikməti-bədaye"dir ki, o, bunların arasında ən çox üstünlüyü sonuncuya vermişdir. Deməli, Şinasinin əsas yeniliyi nəzmdə yeni bir yol açması, yəni şeirdə Qərbdə-Avropada olduğu kimi, sosial-siyasi həyatın tənqidini ifadə etməsi olmuşdur. O, belə bir dövrdə Şinasinin meydana çıxmasının təsadüfi hesab etməmişdir: "...Artıq böylə bir məcburiyyət və bu qədər də hazırlıq olunca, hər kim olursa-olsun bir Şinasinin doğması zəruri idi. İştə Şinasi bu təmayilati-mütəfərriqəyi toplayıb kəndisində mənən bir fikir və niyyət, felən də bir xətti-hərəkət ittixaz edə bilmiş olduğu üçün böyükdür. Şinasinin sağ əli istiqbala uzadılmış oldğuğu halda, sol əli mazidən ayrılmamışdır, demişdim. Fəqət, bundan dolayı Şinasini iki nöqteyi-nəzərdən məzur görmək lazım gəlir. Bir,insan nə qədər mücəddid olursa olsun, içində yetişdiyi cəmaətin, sinəsində böyüdüyü adatın büsbütün mafövqünə çıxamaz və az-çoxonunla əlaqədar bulunur. İkinci məzuriyyət başqa cinsdəndir. Məlumdur ki, ədəbiyyati-ətiqəmizin əski tərz və üslubu kimi mürəttib və cəli bir əsəri-sənət vücudə gətirmək üçün istedadati-fitriyyədən başqa bir şey istər. O hoqqabazlığın yolunu bilməli!.. Bu da bir xeyli zəmanə və br növi-təhsil və tərbiyəyə möhtacdır" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577[FR 544]).

Ancaq Sur onun böyüklüyünü yalnız Qərb mədəniyyətinin yeniliklərindən təsirlənən əsərlər yazmaqda görmür, eyni zamanda, Şinasinin Türk dilinin saflaşmasındakı əməyini də yüksək qiymətləndirmişdir. O, yazırdı: "Zira, bütün-bütün lisanı türkcələşdirmək və bizi

İranla və ərəbə ilələbəd əsir buraxan bu meylin önünü almaq üçün türk sərmayeyi-əlfaz ilə türk qəvaşdi-nəzmiyyəsi ilə şeir yazmaq lüzumunu ima etmiş və belə bir müvəffəqiyyətin bu dərəcəyə qədər möhtəməlolduğunu da göstərmişdir. Sırf türk kəlmələrindən mürəkkəb bir ifadə ilə şeiri vardır" (Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". AMEA Əlyazmalar İnstitutu, 3577[FR 544]).

**Nəticə**

Beləliklə, Abdulla Surun dünyagörüşünün əsasında soydaşlarını, dindaşlarını tərəqqiyə, maariflənməyə səsləməklə yanaşı, islamlıqla türklüyün dirilişi və inkişaf yollarını da göstəmişdir. O, bir tərəfdən hazırda cəhalət, geriçilik dövrünü yaşayan türk-müsəlman xalqlarının problemlərinin əsas mahiyyətini göstərməyə çalışmış, digər tərəfdən Qərbə nisbətdə geridə qalan Şərq xalqlarının, o cümlədən türk-müsəlman millətlərinin çıxış yollarını aramışdır. Azərbaycan türklərinin tərəqqisi uğrunda mübarizə aparan AbdullaSur hesab edirdi ki, artıq bütün millətlər kimi türk-müsəlman xalqlarının da milli cəmiyyətlər yaratması, milli-dini birliyə nail olması vaxtıdır. Xüsusilə də, milli birlik, yəni Türk xalqlarının birliyi yolunda o, ortaq Türk dilinin olmasını vacib hesab etmişdir. Bizcə, onun dünyagörüşündə Türk-İslam aləminin vəziyyəti və çıxış yolları ilə bağlı irəli sürdüyü bir çox mülahizələr günümüzdə də aktuallığını qoruyub saxlamaqdadır.

## Ədəbiyyat


Araslı Həmid. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998
Cavad Əhməd. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005
Cavid Hüseyn. Əsərləri. 4-cü cild. Bakı, "Yazıçı", 1985
Cəfər Məmməd. Seçilmiş əsərləri. I cild. Bakı, Azərnəşr, 1974
"Ədəbiyyat maraqlılarına müjdə". "Molla Nəsrəddin" jurnalı, Bakı, 14 dekabr 1908, № 50
"Ədəbiyyat-Osmaniyyə". "Tərcüman" qəzeti, Krım-Bağçasaray, 28 dekabr 1908, № 81
Fərəcova Zöhrə. "O, qəlblərdə yaşayır". "Azərbaycan" qəzeti, Bakı, 23 iyul 2017-ci il
Firidun Bəy Köçərlinin şəxsi arxivi. Bakı, Nurlan, 2006
Genceli Mehdi. Hür fikirli Abdullah Sur. İstanbul, Ötüken, 2021
Gəncəvi Abdulla Məhəmmədzadə. "Ay müsəlman qardaşlar". "Şərq-i Rus" qəzeti, Bakı, 22 iyun1903, № 35
Hadi Məhəmməd. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2005
Həbibbəyli İsa. "Ədəbiyyatşünaslıq elminin formalaşması prosesləri". "525-ci qəzet" qəzeti, Bakı, 21 may 2022
İbadoğlu Əbülfəz. Abdulla Surun ədəbi-tənqidi görüşləri. "Azərbaycan" jurnalı, 1968, №1
İbrahimov Sənətulla. "Bir məşəl yenə söndü". "İqbal" qəzeti. Bakı, 1912, №59
Keykurum Naki. "Mekteb-i Ruhani". İstanbul. "Azerbaycan" dergisi, yıl 7, sayı 10 (70), ocak 1958
Qasımov Cəlal. Abdulla Surun həyat və yaradıcılığı. Bakı, "Təhsil", 2004
Mirzəcamalov Hüseyn. "Abdulla Tofiq kim idi?". "Təzə xəbər" qəzeti, Bakı, 22 iyun 1912, № 31
Məhəmmədzadə Abdulla Tofiq. "Gəncədən". "Tərəqqi" qəzeti, Bakı, 16 mart 1909, № 55
Nəzmi Əli. Abdulla Tofiq (A.Sur)un ruhuna ithaf. "İqbal" qəzeti. Bakı, 1912, №93
Sur Abdulla. "Elm-i iqtisad". Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3576[FR 544]
Sur Abdulla. "Türk ədəbiyyatına bir nəzər". Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu, 3577[FR 544]
Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 30
Sur Abdulla. "Füzuliyə bir nəzər". "Füyuzat" jurnalı, Bakı, 1907, № 31
Sur Abdulla. "Nəfiyə bir nəzər". "Həqiqət" qəzeti, Bakı, 1909, №3
Sur Abdulla. "Xoruzun quyruğu görünməyə başladı". "İrşad" qəzeti, Bakı, 1906, № 50
Sur Abdulla. "Əkinçilərə aid". "İrşad" qəzeti, Bakı, 19, 22 may 1906, №117, 119
Sur Abdulla. "İrana məxsus bir mülahizə". "İrşad" qəzeti, Bakı, 7 sentyabr 1906, № 210

doi.org/10.61764/lasr.1.2024.11-22

Sur Abdulla. “Türkiyədə məktəblər məramnaməsi”. “İrşad” qəzeti, Bakı, 15 may 1906, №114
Şaiq Abdulla. Əsərləri. 5 cilddə, 5-c cild. Bakı, “Yazıçı”, 1978
Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi (1800-1920-ci illər). Bakı, “Şərq-Qərb”, 2015
Talıbzadə Kamal. Sənətkarın şəxsiyyəti. Bakı, “Yazıçı”, 1978
Talıbzadə Kamal. Azərbaycan ədəbi tənqidinin tarixi. Bakı, “Maarif”, 1984
Tofiq Abdulla. “Məktəblərdə xəyal-i fənər yaxud sinematoqraf”. “Həqiqət” qəzeti, Bakı, 1 iyul 1910, № 149
Vəliyev Şamil. “Naməlum məktublar”. “Azərbaycan” jurnalı, №1-2, Bakı, 1993

**Фаик Алекперов**

## ТУРЕЦКОСТЬ И ИСЛАМ В МИРОВОЗЗРЕНИИ АБДУЛЛЫ СУР

***Резюме***

*На основе мировоззрения Абдуллы Сура он призвал своих соотечественников и верующих людей к прогрессу и просвещению, а также показал пути возрождения и развития тюркизма с исламом. С одной стороны, он пытался показать основную суть проблем тюрко-мусульманских народов, живущих в настоящее время в период невежества и отсталости, а с другой стороны, искал выходы для восточных народов, в том числе и тюрко-мусульманские народы, отстающие по сравнению с Западом. Абдулла Сур, боровшийся за прогресс азербайджанских тюрков, считал, что тюрко-мусульманским народам пора создавать национальные общества и достигать национально-религиозного единства, как и все другие народы. В частности, он считал важным наличие общего тюркского языка на пути национального единства, то есть единства тюркских народов. На наш взгляд, многие из высказанных им соображений относительно состояния тюркско-исламского мира и выхода из него актуальны и сегодня.*

*Ислам и турецкость занимали важное место в мировоззрении Абдуллы Сура. Он не только считал ислам против модернизации, но и заявлял, что он является основой современности и инноваций. Согласно Суре, те, кто утверждает это, либо не знают истинной природы ислама, либо намеренно вводят общественность в заблуждение. По его словам, истинная культура – это ислам, а ислам – это то, чем является истинная культура. Сур заявил, что турки-тюрки и турки-азербайджанцы имеют один и тот же язык и корни. По его словам, только османский турецкий труднее понять, чем азербайджанский турецкий. Причина этого в том, что османский турецкий язык находится под большим влиянием арабо-персидских языков. С этой точки зрения он выступал за симуляцию азербайджанского литературного турецкого османскому литературному языку. Сур считал, что общий тюркский язык должен формироваться и развиваться вне арабо-персидских языков, насколько это возможно между турками-османами и турками. В своих статьях Сур пытался раскрыть суть армяно-мусульманских конфликтов, разгоревшихся в начале XX века, в том числе философию «армянского характера». Отсюда ясно, что очищение от турок «Карсской области и Иреванской губернии на границе с Турцией» не было случайным, и за счет этих земель в будущем были созданы основания для создания «Армянского государства».*

***Цель*** – анализировать взгляды А.Сура на просвещение и общество, в том числе идеи тюркизма и исламизма.

***Методология*** – сравнительный анализ, наследование, передача идей, анализ.

***Результаты исследования*** – Поиски согласования идей А.Сура с общественно-политическими и идеологическими требованиями современной эпохи

***Ключевые слова:*** *исламизм, тюркско-исламский союз, тюркизм, русификация, персианизация, туранизм, просвещение*

doi.org/10.61764/lasr.1.2024.11-22

**Faiq Alekberli**

# TURKISHNESS AND ISLAM IN THE WORLD VIEW OF ABDULLA SUR

***Summary***

*On the basis of Abdulla Sur's worldview, he called his compatriots and religious people to progress and enlightenment, and also showed the ways of revival and development of Turkishness with Islam. On the one hand, he tried to show the main essence of the problems of the Turkic-Muslim peoples, who are currently living in the period of ignorance and backwardness, and on the other hand, he looked for ways out for the Eastern peoples, including the Turkic-Muslim nations, who are lagging behind compared to the West. Abdulla Sur, who fought for the progress of Azerbaijani Turks, believed that it is time for Turkish-Muslim peoples to create national societies and achieve national-religious unity, like all other nations. In particular, he considered it important to have a common Turkish language in the path of national unity, that is, the unity of the Turkic peoples. In our opinion, many of the considerations put forward by him regarding the state of the Turkish-Islamic world and the way out are still relevant today.*

*Islam and Turkishness occupied an important place in Abdulla Sur's worldview. He not only considered Islam against modernization, but declared that it is the basis of modernity and innovation. According to Sura, those who claim this are either ignorant of the true nature of Islam, or they deliberately confuse the public. According to him, true culture means Islam, and Islam is what true culture is. Sur declared that Turkish Turks and Azerbaijani Turks have the same language and roots. According to him, only Ottoman Turkish is more difficult to understand than Azerbaijani Turkish. The reason for this is that Ottoman Turkish is more influenced by Arabic-Persian languages. From this point of view, he was in favor of simulating Azerbaijani literary Turkish to the Ottoman literary language. Sur believed that a common Turkish should be formed and developed outside the Arabic-Persian languages as much as possible between Ottoman and Turkish Turks. In his articles, Sur tried to reveal the essence of the Armenian-Muslim conflicts that erupted at the beginning of the 20th century, including the philosophy of "Armenian character". It is clear from this that the cleansing of "Kars region and Iravan province on the border of Turkey" from Turks was not accidental, and the grounds for the creation of the "Armenian state" were created at the expense of these lands in the future.*

***Purpose*** **-** To analyze A.Sur's views on enlightenment and society, including the ideas of Turkism and Islamism.

***Methodology*** – comparative analysis, inheritance, transmission of ideas, analysis.

***The results of the study*** **–** Searching for reconciliations between the ideas of A. Sur and the socio-political and ideological requirements of the contemporary era

***Keywords:*** *Islamism, Turkish-Islamic union, Turkism, Russification, Persianization, Turanism, Enlightenment*

doi.org/10.61764/lasr.1.2024.23-31

**UOT- 316.42**

**Südabə Haşımova**
*Bakı Dövlət Universiteti, s.f.d.,*
***Azərbaycan***
*hashimova.sudaba@bk.ru*
*http://orcid.org/0009-0003-9354-0152*

# GƏNCLƏRİN PEŞƏ MÜQƏDDƏRATINI MÜƏYYƏNLƏŞDİRMƏSİNƏ TƏSİR GÖSTƏRƏN ƏSAS AMİLLƏR

***Xülasə***

*Məqalədə göstərilir ki, müasir cəmiyyətdə gənclərin peşə seçiminə bir çox amillər təsir edir və bu proses uşaqlıqdan başlayır. Peşə yönümünün ümumi qəbul edilmiş subyektlərindən hər birinin məqsədi düzgün həyat və peşə yolunun seçimində gənc nəslə kömək etməkdir. Valideynlərin, qohumların, tanışların, dostların, müəllimlərin, müəyyən peşə nümayəndələrinin daxil olduğu gəncin yaxın ətrafı əsas amillər qrupuna aiddir. Fərdə münasibətdə əsasən xarici olan ikinci qrup amillər gənclərin baxışlarına və ustanovkalarına sosial institutlar - orta ümumi və peşə təhsili sistemi, KİV-lər vasitəsilə təsir edir. Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir. Gəncin peşə müqəddəratını müəyyənləşdirməsinin mühüm aspektini həmçinin başqa birisinin deyil, fərdin özünün peşə seçimi haqqında qərar qəbul etməsinin dəqiq dərk olunması təşkil edir. Dövlətin sosial-iqtisadi vəziyyəti obyektiv amil olaraq, gənclərin peşə planlarına bilavasitə təsir göstərir.*

***Məqsəd:*** Tədqiqatın əsas məqsədi müasir formal və qeyri-formal institutların gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinə təsirini öyrənməkdir.

***Metodologiya:*** Tədqiqatın metodoloji əsası kimi elmilik və obyektivlik, sosial-peşə sferasında hadisə və proseslərin dialektik əlaqəsi metodu və prinsipləri çıxış edir. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün tədqiqat işində struktur-funksional, amil və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri:*** Gənclərin sosial-peşə müqəddəratının formalaşması amillərinin təhlili bu qənaətə gəlməyə əsas verir ki, onlar hamısı məşğulluq institutu ilə birğə peşə seçimi işini məqsədyönlü şəkildə həyata keçirən vahid şəbəkəni yaratmalıdırlar. Bu gənclərə daha düşünülmüş və real peşə planlarını qurmağa imkan verəcəkdir.

***Açar sözlər:*** *gənclərin peşə müqəddəratı, peşə seçimi, peşə təhsili, peşə oriyentasiyası, peşə planları*

## Giriş

Peşə müqəddəratını müəyyənləşdirmə insanın cəmiyyətdə özünütəsdiq etməsi vasitəsi olaraq, bu gün hər bir gəncin həyatında əsas qərarlardan birinə çevrilir. Bazar şəraitində peşənin düzgün seçilməsi gəncə sosial statusun əldə edilməsində perspektivlər yaradır [12]. Sosial-iqtisadi dəyişikliklərin baş verdiyi cəmiyyətdə gənc peşə seçimi ilə bağlı bir sıra çətinliklərlə qarşılaşır. Əvvəla, istənilən tarixi transformasiya prosesində sistem dəyişikliklərinin əsas ifadələrindən biri məşğulluq və peşə strukturunun dəyişməsidir. Cəmiyyətin əvvəlki iqtisadiyyata yönəlmiş peşələrə tələbatı azalır, bununla yanaşı yeni peşələr yaranır, yeni sosial strukturun formalaşması baş verir. Bütün bunlar ictimai şüurda peşələrin nüfuzunun iyerarxiyasının dəyişməsinə səbəb olur. Gənclərdə peşələrin və

doi.org/10.61764/lasr.1.2024.23-31

peşə nəaliyyətlərinin insan həyatında yeri və rolu, peşə fəaliyyətinin məqsədləri və onun əldə edilməsi üsulları haqqında yeni təsəvvür formalaşır. Peşə təhsili bu gün yalnız idraki ehtiyacların, mənəvi tələbatların formalaşması və ödənilməsinin əsas şərtlərindən biri deyil, həm də gənclərin şəxsiyyətinin sabitliyini, öz gələcəyinə inamı təmin edən vərdişlər, bacarıqlar və biliklər formasında maddi dəyərlərin ötürülməsi vasitəsini ifadə edir.

Cəmiyyətin və dövlətin qarşısında duran vəzifə düşünülmüş, elmi əsaslandırılmış təhsil siyasətini həyata keçirməklə gənclərin potensialından istifadə edilməsi və öz sosial-peşə maraqlarını, tələbatlarını, həyat perspektivlərini müəyyənləşdirmək və reallaşdırmaq üçün əlverişli şəraitin təmin edilməsidir. Son illərdə aparılan islahatlar prosesində dövlətin peşə təhsili siyasətinin məqsədləri köklü şəkildə dəyişmişdir. Mövcud peşə təhsili qanun-veriliyi təhsil sferasında gəncin intellektual, mədəni - mənəvi inkişaf ehtiyaclarının ödənilməsini ön plana çıxarır.

## 1. Gənclərin peşə müqəddəratı problemi və onun formalaşmasına təsir göstərən amillər

Müasir cəmiyyətdə gənclərin peşə seçiminə bir çox amillər təsir edir və bu proses uşaqlıqdan başlayır. Peşə yönümünün ümumi qəbul edilmiş subyektlərindən hər birinin - ailə, dostlar, məktəb, peşə təhsili müəssisələri, kütləvi informasiya vasitələri, dövlət orqanları, həmçinin müəssisələrin məqsədi düzgün həyat və peşə yolunun seçimində gənc nəslə kömək etməkdir [6]. Əgər əvvəllər peşə müqəddəratı məsələsinin həllində müxtəlif formal və qeyri-formal strukturlar ilə gənclərin qarşılıqlı əlaqəsi prosesi dövlətin ciddi nəzarəti altında idisə, bu gün onlar arasında əlaqələr xeyli zəifləyib. Bu gün şəxsiyyət-lərarası ünsiyyət prosesinə təsir göstərən valideynlərin, qohumların, tanışların, dostların, müəllimlərin, müəyyən peşə nümayəndələrinin daxil olduğu gəncin yaxın ətrafı əsas amil-lər qrupuna aiddir. Fərdə münasibətdə əsasən xarici olan ikinci qrup amillər gənclərin baxışlarına və ustanovkalarına sosial institutlar – orta ümumi və peşə təhsili sistemi, KİV-lər vasitəsilə təsir edir [11, s.101-102]. Bu institutlar qarşıya qoyulmuş vəzifələrin öhdə-sindən keyfiyyətlə gələ bilmir. Məhz fərdi və ictimai tələbatları maksimum dərəcədə bir-ləşdirən gənclərin effektiv peşə müqəddəratını müəyyənləşdirməsini təşviq edə bilmirlər. Birinci qrup amillərin əhəmiyyətini azaltmadan qeyd edə bilərik ki, onlar həmişə peşə kadrlarına olan tələbatın sürətlə dəyişməsi haqqında kifayət qədər informasiyaya malik olmurlar. Bu da çox vaxt səhv və əsassız peşə seçiminə səbəb olur. Bu meyllərin dəyiş-dirilməsi və gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinin effektivliyinin yüksəl-dilməsi üçün cəmiyyət və dövlət səriştəli sosial strukturların – məşğulluq xidmətlərinin - təşkilati, tənzimləyici və nəzarətedici funksiyaları vasitəsilə peşə seçimi işinə daha məq-sədyönlü xarakter verməlidir [5].

Beləliklə, gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir göstərən amilləri - subyektiv və obyektiv amillərə bölmək olar. Subyektiv amillərə: fərdi-şəxsi keyfiyyətlər, sağlamlıq vəziyyəti, hazırlıq səviyyəsi, ictimaiyyət tərəfindən tanınmağa iddialı olma, peşə fəaliyyəti haqqında məlumatlılıq, yaş və peşə böhranları, optantın şəxsi peşə planları aiddir. Obyektiv amillərə isə: ailə, cəmiyyətin müəyyən bir sosial təbəqə və qrupuna (sosial mühit və referent qruplar) mənsubiyyət, həmçinin gender fərqləri [9, s. 57], kollektivdə şəxsiyyətlərarası münasibətlər, həmçinin müəssisənin özündə vəziyyət, təhsil sistemi müəssisələri, KİV, hökumətin iqtisadi və siyasi qərarları, ölkədəki sosial-iqtisadi şərait, dövlət hakimiyyət orqanları (məsələn, məşğulluq mərkəzləri), əmək bazarı daxildir.

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə həmçinin sosial qruplar və sosial institutlar təsir göstərir. Onların təsiri mikro və makrosəviyyələrdə baş verir. Ailə, həmyaşıdlar, peşə daşıyıcıları və s. kimi sosial qruplar gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə mikrosəviyyədə təsir göstərirlər. Sosial qruplar həmçinin sosial

institutların təsirinin ötürücüsü kimi çıxış edirlər. Makrosəviyyədə gənclərin öz peşə müqəddəratını müəyyənləşdirməsi təhsil, peşə və əmək bazarı kimi sosial institutların qarşılıqlı təsirilə nizamlanırlar. Sosial institutlar gənclərin (daha çox yuxarı sinif şagirdlərinin) peşə müqəddəratının müəyyənləşdirilməsinə bilvasitə: mövcud normalar, ənənələr və stereotiplər, eləcə də müəssisələr [6, s. 13-14] vasitəsilə təsir göstərirlər.

## 2. Gənclərin peşə müqəddəratını müəyyənləşdirməsinə təsir göstərən obyektiv və subyektiv amillər

Bu amillərdən bəzilərinin gənclərin peşə müqəddəratının müəyyənləşməsində rolunu nəzərdən keçirək.

Ailəni gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinə ümumən çox güclü təsir göstərən sistem kimi müəyyənləşdirmək olar [9, s. 34]. Bu təsir iki cür baş verir: bilavasitə, valideynlərin və ya onları əvəz edən şəxslərin tələblərinin birbaşa təsiri formasında və bilvasitə, uşaqların ideallarının, meyllərinin, dəyərlər oriyentasiyasının müəyyənləşdirilməsi formasında.

Bazar şəraitində ailə gənclərin peşə oriyentasiyasında mərkəzi yer tutur və şəxsiyyətin tələbatlarını standart formada ifadə edir. Bununla yanaşı cəmiyyətdə baş verən sürətli dəyişikliklər cəmiyyətin sosial və peşə strukturunun dərin transformasiyasının nəticəsi kimi, həyat və peşə yoluna ənənəvi baxışlarda əsaslı dəyişikliklər fərd tərəfindən dəyərlərin və əmək fəaliyyəti normalarının tez bir şəkildə dərk olunması zərurətini ortalığa qoyur [3].

Ailədə peşə müqəddəratının müəyyənləşdirilməsi məsələsi, bir qayda olaraq, uşaqların yeniyetmə dövründə ciddi müzakirələr mövzusuna çevrilir, baxmayaraq ki, bəzi hallarda valideynlər bu problemə öz uşaqlarının daha kiçik yaşlarında müraciət edə bilirlər [9, s. 34].

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi problemi çərçivəsində ailənin böyük və kiçik üzvləri arasında qarşılıqlı münasibətlərin mümkün müxtəlifliyinə dair nümunəyə nəzər yetitirək:

1. Böyüklər yeniyetmənin qərarına hörmətlə yanaşmaqla ona seçim azadlığı verir.
2. Böyüklər yeniyetmənin gələcəyi məsələsinə olduqca həssas yanaşırlar.
3. Böyüklər yeniyetmənin seçimindən narazıdırlar.
4. Böyüklər yeniyetməyə bu və ya digər dərəcədə təhrif olunmuş istiqamət verirlər.

Qeyd edək ki, böyüklərin mövqelərinə dair bu variantlardan heç biri gənclər tərəfindən düzgün peşə seçimi edilməsinə gətirib çıxarmır. Təcrübəyə arxalanaraq, sintez əsasında aşağıdakı, beşinci variantı təklif etmək olar:

5. Böyüklər gənclər üçün həyati və peşə cəhətdən düzgün, mənəvi cəhətdən əsaslandırılmış cavablarının sərbəst və fəal şəkildə axtarılması üçün şərait yaradır. Bu variant həyatda az-az hallarda baş verdiyindən, onu idealizə olunmuş hesab etmək olar. Onun reallaşdırılmasına yalnız "ailə-məktəb-peşə təhsili- əmək sferası" sistemində nail olmaq mümkündür [9, s. 35-36].

İnsanın peşə müqəddəratını müəyyənləşdirməsi uşağın oyun vaxtı müxtəlif peşə rollarını və davranış nümunələrini görüb götürdüyü erkən uşaqlıq dövründən başlayır və gəncin bütün sonrakı həyatına təsir edəcək məsuliyyətli qərarın qəbul edilməsinin zəruri olduğu yetkinlik dövründə intensiv davam edir [8, s. 3-7].

Potensial əmək subyekti nöqteyi-nəzərindən gənc şəxsiyyətinin məktəbəqədər və məktəb yaşında inkişafı ilk növbədə böyüklərin məsuliyyət daşıdığı onun ünsiyyət dairəsindən, şəxsiyyətlərarası münasibətlərdən birbaşa asılıdır. Əgər böyüklər məktəb yaşına çatmamış uşağı onun üçün mümkün olan əmək növlərində iştiraka təşviq edirlərsə, onda əmək əlamətləri ilə fəaliyyət artıq məktəbəqədər dövrdə mümkündür.

doi.org/10.61764/lasr.1.2024.23-31

Böyüklər həmçinin uşağın ümumi işlərdə iştirakını elə təşkil edə bilər ki, əmək fəaliyyəti bu hadisələrin mühüm aspektinə çevrilmiş olsun. Bu halda gənclərdə müxtəlif əmək növlərinə dair nizama salınmış və çoxplanlı təsəvvür formalaşa bilər.

Peşə seçiminin hər bir şəxs tərəfindən fərdi şəkildə həyata keçirilməsinə baxmayaraq, o, ümumi struktura malikdir. Məsələn, gəncin şəxsi peşə planını Y.A. Klimov belə təsəvvür edir:

- gələcək üçün planları, hazırki inkişaf anı üçün həyat ideallarını və fəaliyyətini əhatə edən əsas məqsəd;
- ən yaxın həyat məqsədlərinə çatmaq üçün yollar və vasitələr haqqında təsəvvürlər: mütəxəssislərlə söhbətlər, öz təhsilini artırma və s.;
- nəzərdə tutulmuş məqsədlərə çatmağın xarici şəraiti haqqında təsəvvürlər: çətinliklər, bu və ya digər şəxslərin mümkün müqaviməti;
- qarşıdakı məqsədlərə çatmağın daxili şərtləri haqqında təsəvvürlər: təhsil almaq üçün imkan və bacarıqlar, sağlamlıq vəziyyəti. Məqsədlərə çatmaq şəxsiyyətdən məqsəd-yönlülük, dözüm, nəzəri və praktiki hazırlıq və digər keyfiyyətlər tələb edir;
- öncədən bilinməyən maneələr yarandığı halda əsas variantların reallaşdırılmasında məqsədlərin və onlara çatmağın alternativ variantları [9, s. 231-232].

Gənclərin həyat planlarına dair daha iki məsələyə diqqət yetirmək lazımdır. Belə ki, gənclərdə çox vaxt yalnız bir həyat planı mövcud olur ki, bu planın həyata keçməməsindən onlar (deyək ki, iqtisadi, ailə səbəblərindən) həyat faciəsi kimi dərindən mütəəssir olurlar. Bununla əlaqədar olaraq, onlara həyatda gözlənilməz hadisələrin nəzərə alınmasının başa salınması mühüm əhəmiyyətə malikdir. İkinci məsələ onunla bağlıdır ki, gənclər bəzən özləri üçün ən əziz olan həyat planlarını gizli saxlayırlar. Buna görə də, böyüklər onlara ehtiyatla, başa düşərəkdən və həssaslıqla yanaşmalıdırlar.

Gəncin peşə müqəddəratının müəyyənləşdirilməsinin mühüm aspektini həmçinin başqa birisinin deyil, fərdin özünün peşə seçimi haqqında qərar qəbul etməsinin dəqiq dərk olunması təşkil edir. Bu amilin olmadığı təqdirdə peşə müqəddəratının müəyyənləşdirilməsi haqqında danışmağa da dəyməz [9, s. 27-28]. Peşə seçimi eləcə də rasional və ya emosional əsasda həyata keçirilə bilər. Burada ən əsası gəncin (optantın) öz seçimindən razılığı, öz seçimini dərk etməsidir [7].

### 3. Gənclərin peşə müqəddəratını müəyyənləşdirməsində obyektiv amillərin rolu

Gənclərin peşə müqəddəratının müəyənləşməsində peşə oriyentasiyası mühüm yer tutur. Peşə oriyentasiyası dedikdə insanın bacarıqları və maraqlarına görə ictimai tələbatı və "ölkə təsərrüfatının maraqları naminə əmək resurslarının tamqiymətli bölüşdürülməsinin zəruriliyi" [4, s.39] nəzərə alınmaqla peşə seçiminə hazırlığı prosesi nəzərdə tutulur. Peşə oriyentasiyası, sistem olaraq, ümumi məqsədlər və vəzifələr, funksiyaların vahidliyi ilə birləşmiş qarşılıqlı əlaqədə olan aşağıdakı altsistemlərdən ibarətdir:

1. Gənclərin peşə hazırlığı üçün məsuliyyət daşıyan və öz işini əlaqəli şəkildə həyata keçirən təşkilati yarımsistem;
2. Peşə maarifləndirilməsi, məsləhət, məktəblilərin seçilməsi və adaptasiyasının da daxil olduğu məntiqi yarımsistem;
3. Gənclərin peşə müqəddəratını müəyyənləşdirmənin subyekti kimi götürüldüyü, aktiv mövqe, müəyyən məqsədə yönəldilmə, mədəni səviyyə, özü haqqında təsəvvür kimi keyfiyyətlərlə xarakterizə olunan şəxsi yarımsistem.
4. Ölkədə peşə oriyentasiyası sistemi haqqında informasiyaya malik olma və idarə etməni əhatə edən idarəetmə yarımsistemi [8, s. 3-8].

Peşə oriyentasiyası bütün yaşlar üçün aktual olan fasiləsiz və məqsədyönlü prosesdir. Gənclərin peşə oriyentasiyasının məqsəd və vəzifələri ictimai tələbatla müəyyənləşir. Bu

prosesdə əsas məqsəd gənclərin şüurlu peşə seçiminə nəzəri və praktiki cəhətdən hazırlanmasıdır. Bu nöqteyi-nəzərdən gənc elə peşəni seçməlidir ki, orada irəli sürülən tələblər onun şəxsi keyfiyyət və imkanları ilə üst-üstə düşsün.

Bəzi hallarda gənclərin peşə müqəddəratını müəyyənləşdirmə problemi başlanğıc mövqelərinin bərabərsizliyi məsələsi ilə bağlı ola bilər. Gənclər üçün bu işdə əsas rolu təhsil səviyyəsi oynaya bilər: təhsil onlara peşə inkişafı və ambisiyalarını təmin etmək üçün impuls verə bilər [2, s. 101].

Dövlətin sosial-iqtisadi vəziyyəti obyektiv amil olaraq, gənclərin peşə planlarına bilavasitə təsir göstərir. Yuxarı sinif şagirdləri hər halda məhdud seçim imkanlarına malik insanlardır, baxmayaraq ki, ölkəmizdə geniş "təhsil" xidmətləri spektri və müxtəlif təhsil müəssisələri formaları mövcuddur. Bu məhdudiyyət əmək bazarındakı, yaşayış yerindəki vəziyyətin, gənclərdə peşə dünyası haqqında əhəmiyyətli təsəvvürlərin olmamasının nəticəsidir. Zənnimizcə, gənclərin cəmiyyətin peşə strukturuna inteqrasiyası üçün onların ixtisas üzrə işlə təmin olunması zəruridir. Məhz ixtisasın yerinə yetirilən işin xarakter və məzmununa uyğunluğu gənclərin istehsal prosesinə, peşə münasibətləri sisteminə və əlbəttə, şəxsiyyətin yüksək sosial-peşə statusuna pozitiv daxil olmasının göstəricisi ola bilər [2, s. 102].

Beləliklə, peşə müqəddəratını müəyyənləşdirmə problemi bütün gənclərdə müəyyən vaxtda yaranır: bəzilərinə planlarını natamam, digərlərinə tam orta məktəbi qurtarmaq ərəfəsində, başqalarına isə ali təhsil müəssisəni bitirəndən sonra dəyişmək lazım gəlir. Planların bu cür müxtəlifliyi prinsipcə dövlətə baha başa gəlir.

Son illər bir sıra ölkələrin tədqiqatçıları əmək bazarının intensiv idarə olunması problemlərinə və dövlətin peşə potensialının formalaşdırılması prosesinə diqqəti gücləndirmişlər.

Belə ki, məsələn, qonşu Rusiyada müvafiq xidmətlər tərəfindən ümumtəhsil məktəblərinin məzunlarının planları, peşə seçiminin motivləri, seçdikləri ixtisas sahəsində təhsili davam etdirmək bacarıqları və gələcəkdə iş tapmaq şansları haqqında informasiya bazası formalaşdırılır. Azərbaycan ümumtəhsil məktəblərində də bu praktika ilə yanaşı, peşələr haqqında informasiyanı geniş yaymaq lazımdır. Bunun üçün, məsələn, peşələr və peşə təhsili müəssisələri (şəhər və regionlarda) haqqında kompüter texnologiyaları vasitəsilə məlumat bazasının yaradılması məqsədyönlü olardı. Əlbəttə ki, Respublika Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi, peşə təhsili və təlimi sistemində strateji hədəfləri müəyyən edən "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" [15], Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən ölkənin bir çox şəhər və regionlarında yuxarı sinif şagirdləri üçün peşə yönümü ilə bağlı mütəmadi treninqlərin keçirilməsi və s. kimi zəruri tədbirlər bu sahədə atılan əməli addımlar kimi qiymətləndirilə bilər.

Öz sosiallaşdırma funksiyası ilə məktəb böyüməkdə olan gənc nəslə məxsusi normaları, dəyərləri və davranış münasibətləri olan istehsal, iqtisadi və siyasi münasibətlərə daxil olmağa yardım göstərir.

Lakin hazırkı şəraitdə bu sahədə müəyyən problemlər mövcuddur ki, onlar da gənclərin sosial - peşə inteqrasiyasında müəyyən çətinliklər yaradırlar, məsələn, gənclərin sosial strukturun müxtəlif elementlərinə cəlb olunması, onlarla özünüidentikləşdirmə məsələləri [13, s.51-52]. Məlumdur ki, hökumətin iqtisadi və siyasi qərarları gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinə təsir göstərir: ölkə iqtisadiyyatının bazar təsərrüfatına keçməsi və qərb həyat tərzinə pərəstiş gənclərin müəyyən hissəsinin təkcə peşə deyil, həm də hansı ölkəyə getmək və s. haqqında düşünməsinə səbəb oldu.

Bu gün ölkəmizdə savadlı, məsuliyyətli, peşə cəhətdən yüksək dərəcədə mobil,

özlərini dəyişmiş sosial-iqtisadi şəraitdə müvəffəqiyyətlə və effektiv reallaşdırmağı bacaran gənclərə daha çox tələbat var.

Qeyd edək ki, gənclərin peşə müqəddəratını müəyyənləşdirməsi daha çox ali məktəb şəraitində həyata keçirilir. Onun rəqabətədavamlılığının əsasını "vətəndaşların, cəmiyyətin və əmək bazarının keyfiyyətli təhsilə olan tələbatlarının ödənilməsi üçün şəraitin təmin olunması" təşkil edir [3, s. 25-27].

Ali məktəb gənclərə peşə trayektoriyasını müəyyənləşdirməyə, gələcək karyerasını və öz peşə təşəkkülünün müxtəlif mərhələlərində peşə fəaliyyətini proqnozlaşdırmağa imkan verir. Eyni zamanda peşə təhsilinin özündə və xüsusən ali təhsil sferasında müəyyən problemlər hələ də qalmaqdadır ki, onlar da mütəxəssislərin hazırlanmasında əmək bazarının deyil, təhsil xidmətləri bazarının əsas olaraq götürülməsindən ibarətdir. Buradan da əmək bazarının tələblərindən bəzi geriləmələr irəli gəlir. Əmək bazarının və təhsil xidmətləri bazarının bu muxtariyyəti bir çox hallarda müasir əmək bazarında gənc mütəxəssislərin tələb olunmamasına səbəb olur. Buradan nəticə çıxarmaq olar ki, müasir şəraitdə peşə ali məktəb məzunları üçün ixtisas üzrə işə düzəlməyə zəmanət verə bilməz.

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsindən irəli gələn problemlər eyni zamanda aşağıdakı şərtlər daxilində həll edilə bilər: a) mövcud metodların effektivliyinin yaxşılaşdırılması və məktəb və ali məktəb məzunlarının peşə müqəddəratını müəyyənləş-dirməsi üçün daha yeni, effektiv yardım formalarının təşkili [5, s. 15-17]; b) əmək bazarında real subyektə çevrilmək üçün öz həyat və peşə yolu üzərində düşünən gənclərin fəallığının və təşəbbüsünün artırılması; c) ali məktəbdə təhsilin daha da differensiasiyaya uğraması və onun müəssisə və əmək bazarının bu günkü tələbləri səviyyəsinə qaldırılması; ç) gənclərin peşə fəaliyyətinə dair Azərbaycan iqtisadiyyatının və əmək bazarının inkişafının kadrlara olan tələbatının meylləri nəzərə alınmaqla şüurlu və sərbəst qərar qəbul edilməsinə istiqamətləndirilməsindən ibarət olan ixtisaslaşdırılmış strukturların - əhalinin məşğulluq xidmətlərinin rolunun artırılması. Bununla əlaqədar olaraq, məktəb, ali məktəb və əhalinin məşğulluq xidmətlərinin vəzifəli gənclərin peşə fəaliyyəti sisteminə onların bütünlükdə respublikanın peşə strukturunun meyllərinə dair tam məlumat-landırılması yolu ilə daha erkən və əsaslı şəkildə daxil edilməsi ola bilər.

Beləliklə, təhsil sistemi - müəssisə - məşğulluq xidmətləri üçbucağının möhkəmlən-dirilməsinin zəruriliyi və onlar arasındakı münasibətlərin daha sıx və daha az formal qarşılıqlı münasibətlərə çevrilməsi məsələsi aktuallıq kəsb etməyə başlayır.

Bu günkü Azərbaycanın sosial-əmək reallığında gənclərin aldıqları ixtisasa uyğun olaraq əmək bazarında peşə müqəddərataını müəyyənləşdirməsinin dəqiq sisteminin olma-ması ən aktual problemlərdən olaraq qalmaqdadır. Nəticədə ölkədə gənclərin böyük əksəriyyəti peşə cəhətdən müəyyənləşərək öz əmək tələbatlarını ali məktəbdə aldıqları ixtisas əsasında deyil, əsasən mütəxəssislərin əməyinin az və ya çox dərəcədə adekvat ödənildiyi dövlət sektorunda təmin edir. Aşağı əmək haqqı, lazımi təcrübə və iş bacarıq-larının olmaması və əmək bazarında təklifin defisitliyi - gənclərin ixtisas üzrə işdən imtina etməsinin əsas səbəblərindən biridir ki, bunlar da gənclərimizdə işə düzəlmə üçün alter-nativ variantların tərbiyə edilməsinə səbəb olur. Lakin bu variant ali məktəbdə əldə olunmuş nəzəri və praktiki biliklərin tələb olunmaması, peşə bacarıqlarının itirilməsi, gənc mütəxəssislərdə seçdikləri peşə çərçivəsində peşə müqəddəratının müəyyənləşdirilməsi prosesinin qırılması kimi problemlərlə müşayiət olunur.

**Nəticə**

Gənclərin peşə müqəddəratının müəyyənləşdirilməsinin mürəkkəb, dinamik ikitərəfli proses kimi başa düşülməsi ona təsir edən bir sıra amilləri müəyyən etməyə və onun səmərəliliyinin artırılması üçün bir sıra təkliflər irəli sürməyə imkan verir.

A source: compiled by the author on the basis of [5, pp. 371-391]

**Results and discussion**

Innovative logistics follows the path of increasing the height of logistics process management in connection with the application of various innovations aimed at improving the quality of customer service, increasing the efficiency of logistics processes and reducing various costs.

Innovative logistics systems are connected and directly involved in the organizational system of product movement, which is a chain of logistics operations and system-wide innovations. Logistics innovations have a multi-level appearance.

Online business owners and logistics experts should be aware of the latest developments in the field of logistics. Since the expectations of fast and affordable delivery

motivate further research and development in the field of logistics innovations in the field of automation.

Logistics innovations represent improvements (changes) in logistics services, starting with warehousing and ending with order fulfillment and delivery at the "last mile". Therefore, it is necessary to highlight the following stages of the main logistics innovations of recent years, which have an impact on the supply chain in the logistics sector.

Such aspects include:

- warehousing according to requirements;
- Last-mile delivery;
- Warehouse management systems;
- Automation potential;
- Blockchain transactions;
- Geolocation technologies;
- Drones;
- Crowd shipping technology;
- Big data analytics;
- Autonomous vehicles;
- Cloud computing [31].

With a full set of technologies (a vendor-oriented dashboard and WMS used in all our order fulfillment centers), companies with data on the above-mentioned stages of the order fulfillment process for logistics innovation ensure transparency, consistency and visibility.

According to the study, carriers expect tariff increases this year, plan to increase investments in fixed assets and generally look positively at the introduction of technology as a tool to improve business efficiency. Now transport companies are forced to apply the technologies that their customers use. But most people realize that digitalization will increase efficiency and competitiveness. Innovative logistics services should be considered as management services. That is, traditional routine activities in economics and supply management (supply logistics) should be excluded from their composition, namely: physical operations with elements of flows in the field of commodity and material movement. Logistics is often grouped as a whole. But at the present stage there are various types of logistics related to diverse fields of activity. The scope of application (activity) and the stage at which the product is located determine the appropriate type of logistics. By definition, logistics is a set of stages that include from the beginning of product development, the production stage to the final stage of delivery to the consumer.

Table 1 shows the synthesis of basic and innovative logistics.

**Table 1. Synthesis of different types of logistics**

| Basic logistics | Management objects | Forms and methods of management |
|---|---|---|
| | Material and material values | Necessary to ensure an acceptable level of management of this logistics structure |
| İnnovative logistics | Any streaming processes | Necessary for optimal management of any streaming processes |
| Synthesis of basic and innovative logistics | Material and related financial and information flows | Necessary for optimal management of the supply of goods |

A source: compiled by the author on the basis of [11, pp. 127-138]

The innovative aspect of logistics gives a unified methodology in terms of completeness and logical completeness [14, pp. 23-34]. All management decisions in the activities of companies related to procurement, warehousing, transport, service, distribution, etc. processes, in accordance with the concept of logistics, should be made taking into account the rationalization of the entire flow process.

From an economic point of view, basic and innovative logistics primarily complement each other, but at the same time there is a certain contradiction between them.

Only the optimal solution of the entire complex of mutual tasks (tactical and strategic) of management in a certain time mode based on the use of the main and additional potential of the entire logistics system allows you to achieve the invented (set) goals. In this case, only a logistics system that combines the majority of the numbers of operations or processes, levels, creating a synergistic effect, is able to recoup all logistics costs and ensure the highest efficienc.

It follows that the expediency of using innovative logistics is determined by:

- the possibility of developing a broader and meaningful logistics program by creating an end-to-end analytical and optimization organization for managing a set of material and service flow processes, i.e. integrated logistics, in several links of the supply chain of products or services based on a common information space in order to identify and use additional management reserves;
- solving logistical problems in various parts of the logistics chain in order to identify areas of mutual benefit and a promising compromise for several owners or associated logistics systems, etc.

Based on the above information on innovative logistics, it can be determined that the main principle of developing an organizational and economic management mechanism for this system is:

- detailing the main goal of the logistics project into composite sub-goals;
- the choice of an organizational management structure that provides the highest level of innovation sensitivity;
- formation of a new model for the development of companies in unstable environmental conditions;
- creation of a high-efficiency control and management accounting system for innovative logistics;
- creation of a new personnel management model focused on the collective participation of employees in the innovative logistics process, achieving the motivation of "resistance to change".

An analysis of the experience of foreign countries shows that based on factors such as economic, cultural, historical, social, etc. The innovative development of the countries of the world is individual. Therefore, so far, there is no single model that would suit all countries of the world without exception, and attempts to simulate the successful experience of other countries, perhaps, will not lead to the desired result without adapting to local conditions. However, there are certain areas for studying approaches to innovation management in countries with a high level of LPI.

According to the World Bank Group, most countries are well aware of the importance of logistics efficiency for development and integration. The book "Trade Logistics in the Global Economy" notes that the unambiguous nature of logistics is: logistics is not only the connection of infrastructure, but also the regulation of services, sustainability and resilience or simplification of procedures in the trade industry.

The World Bank Logistics Efficiency Index is a unique comparative analysis tool that measures the convenience of logistics systems in more than 140 countries with data in

2023. The World Bank Group uses the Logistics Efficiency Index as the most important starting point for dialogue with member countries on the driving forces of logistics efficiency. The index consists of six components - customs, infrastructure, ease of transportation, quality of logistics services, timeliness, and tracking [3].

The World Bank identifies the countries with the best trade logistics every two years, starting in 2007.

Table 2 shows the TOP 10 countries and CIS countries according to the logistics efficiency index in 2023.

**Table 2. Ranking of the TOP 10 countries and CIS countries according to the logistics efficiency index, 2023**

| Range | Countries | LPİ Score, points | LPİ Group | Customs Score, points | Infrastructure Score, points | International Shipments Score, points |
|---|---|---|---|---|---|---|
| 1 | Singapore | 4,3 | 1 | 4,2 | 4,6 | 4,0 |
| 2 | Finland | 4,2 | 2 | 4,0 | 4,2 | 4,1 |
| 3 | Denmark | 4,1 | 3 | 4,1 | 4,1 | 3,6 |
| 4 | Germany | 4,1 | 3 | 3,9 | 4,3 | 3,7 |
| 5 | Netherlands | 4,1 | 3 | 3,9 | 4,2 | 3,7 |
| 6 | Switzerland | 4,1 | 3 | 4,1 | 4,4 | 3,6 |
| 7 | Austria | 4,0 | 7 | 3,7 | 3,9 | 3,8 |
| 8 | Belgium | 4,0 | 7 | 3,9 | 4,1 | 3,8 |
| 9 | Canada | 4,0 | 7 | 4,0 | 4,3 | 3,6 |
| 10 | Hong Kong SAR | 4,0 | 7 | 3,8 | 4,0 | 4,0 |
| … | ….. | … | … | … | … | … |
| 27 | Estonia | 3,6 | 26 | 3,2 | 3,5 | 3,4 |
| 36 | Latvia | 3,5 | 34 | 3,3 | 3,3 | 3,2 |
| 40 | Lithuania | 3,4 | 38 | 3,2 | 3,5 | 3,4 |
| 81 | Belorus | 2,7 | 79 | 2,6 | 2,7 | 2,6 |
| 84 | Georgia | 2,7 | 79 | 2,6 | 2,3 | 2,7 |
| 85 | Kazakhstan | 2,7 | 79 | 2,6 | 2,5 | 2,6 |
| 88 | Ukraine | 2,7 | 79 | 2,4 | 2,4 | 2,8 |
| 96 | Russian Federation | 2,6 | 88 | 2,4 | 2,7 | 2,3 |
| 97 | Uzbekistan | 2,6 | 88 | 2,6 | 2,4 | 2,6 |
| 100 | Armenia | 2,5 | 97 | 2,5 | 2,6 | 2,2 |
| 109 | Moldova | 2,5 | 97 | 1,9 | 1,9 | 2,7 |
| 112 | Tajikistan | 2,5 | 97 | 2,2 | 2,5 | 2,5 |
| 128 | Kyrgyz Republic | 2,3 | 123 | 2,2 | 2,4 | 2,4 |

*A source:* compiled by the author on the basis of [3]

Calculations show that, according to the logistics efficiency index, the countries occupying the top ten (TOP 10) have the highest indices in the range of 4.0-4.3 points.

And the CIS countries, according to the country's logistics efficiency index (calculated by the World Bank), occupy 27 (Estonia)-128 (Kyrgyz Republic), which corresponds to 2.3-3.6 points on the index. The countries in the top ten are: 1st place Singapore (4.3 points), 2nd place Finland (4.2 points), 3rd-6th place Denmark, Germany, the Netherlands and Switzerland (all 4.1 points), 7th-10th place Austria, Belgium, Canada and Hong Kong (all 4.0 points).

The limit of points scored by the countries ranked 1-10 in the assessment of the logistics efficiency index according to the Customs Committee was 3.7-4.2 points. Among

these countries, the lowest score was in Austria (3.7 points), and the highest was in Singapore (4.2 points).

In the CIS countries, this indicator was in the range of 1.9-3.3 points. Among these countries, Moldova had the lowest score (1.9 points), and Latvia had the highest score (3.3 points).

The assessment of the country's infrastructure in the top ten received 3.9-4.6 points. Since Austria scored the lowest score (3.9 points), and Singapore scored the highest score (4.6 points). The CIS countries had a score within 1.9 points (Moldova) and the countries Estonia and Lithuania scored 3.5 points each.

According to the international freight transport indicator, the countries in 1st - 10th place had a score limit of 3.6-4.1. Among them, Canada, Denmark and Switzerland were rated with the lowest score of 3.6, and Finland with the highest score-4.1.

Among the CIS countries, the lowest level of assessment was in Armenia (2.2 points), and the highest was in Estonia and Lithuania (3.4 points).

Thus, it can be noted that the difference between Singapore, which took the first place, and the Kyrgyz Republic, which took the last place, according to the Logistics Efficiency Index was 2.0 points.

It should be noted that Azerbaijan's data on this indicator is not included in the assessment of the logistics efficiency index. In our opinion, Azerbaijan, having the Alat Free Economic zone and the Ipek Yolu road, would occupy a certain number according to the logistics efficiency index.

The Zangezur Corridor is a transport corridor project promoted by Azerbaijan through the territory of Armenia (about 40 km), considering providing transport links between the western regions of Azerbaijan and the Nakhichevan Autonomous Republic (NAR). The transport corridor project is promoted by Azerbaijan and Turkey every time. Armenia constantly objects to it, arguing that the "logic of the corridor" is not noted in the trilateral ceasefire statement. It should be noted that this is considered a form of propaganda by Armenia.

Various observers comment on the "Zangezur Corridor", analyzing the political consequences of using this term and, if implemented, characterizing the opening of this corridor as a pan-Turkist agenda.

According to the calculations of the Center for Analysis of Economic Reforms and Communications of Azerbaijan, unblocking transport links between the territory of Azerbaijan and the NAR will help the country to increase exports by $710 million. In this regard, Azerbaijan will save about $10 million on subsidizing flights from Baku to Nakhichevan. Also, the opening of the railway will help to establish gas supplies, since gas supplies are carried out through Iran. According to this, Iran retains 15% of Azerbaijani transit for gas supplies. According to experts, the opening of the Kars-Nakhichevan-Meghri-Zangilan-Baku railway is important from the point of view of lifting the blockade of Nakhichevan.

Also, this road is important for reducing transport costs, increasing the possibility of foreign trade, developing the tourism sector and passenger turnover, as well as attracting local and foreign investments in this region.

**Conclusion**

In modern conditions for the Transcaucasian countries, the creation of a national innovation system is considered a strategic direction of innovative development. The national innovation system provides for the definition of innovative priorities, the formation and implementation of state programs in this direction. The implementation of

measures to develop innovative logistics and stimulate innovative development will enable state development and the introduction of innovations in the field of logistics.

The technology level of existing transport companies and their management in the CIS countries remains unsatisfactory. Productive innovations are very slowly integrated into the innovation and logistics industry, and the accumulated foreign experience is slowly spreading. The transport infrastructure at this stage is characterized by a lag in the application of modern organization and management of freight and passenger transportation, advanced technologies for the construction and repair of transport networks, as well as in the informatization of management and control processes.

In modern conditions, innovation management and assessment of the importance of investment projects, as well as logistical coordination in the decision-making process related to product or process innovations, become an important element of the activities of logistics innovation systems.

## References


1. Asadi Shokoofeh. The Order Management System, Logistics operations and management. 2011. pp. 221-245.
2. Apanasovich N., Zianchuk M. Systematizing the experience of innovative development of different countries on the basis of the logistic approach. Conference materials. Minsk. 2021.-pp.483-487
3. Arvis J., Ojala L., Wiederer Ch., Shepherd B., Raj A., Dairabayeva K., Kiiski T. Connecting to Compete 2023: Trade Logistics in the Global Economy. World Bank, 2023. [Electronic resource] Available at: https:// International_LPI_from_2007_to_2023_0.
4. Balchik Je., Kalinina O. & Barykin S. Investicii v innovacionnye logisticheskie tehnologii [Investment in innovative logistics technologies], Strategicheskie reshenijai risk-menedzhment [Strategic decisions and risk management], 2018, -107(4), 48-53.
5. Behnam Fahimnia, Mohammad Hassan Ebrahimi et al. Integration in Logistics Planning and Optimization. Logistics Operations and Management. 2011, -pp.371-391
6. Bazilevskaya A., Maslova O. et al. Innovative Logistics/Journal Innovation. Moskou, -2021, №3, pp.65-69
7. Belov V. New Paradigm of Industrial Development of Germany - Strategy “Industry 4.0”, Contemporary Europe, No5, 11-22(2016).
8. Bekmurzaev I.D. Development of the logistics system in the context of digitalization // Bulletin of the Chechen State University. 2021. No. 1 (41). pp. 53-58.
9. James, R. Stock, Duglas, M. Lambert. Strategic logistics management. Edited by V. Sergeev. Translated from English— INFRA-M:2015, 797 p.
10. Gabdullina L.B., Tolysbaev B.S. Foreign experience in implementing and applying innovations in transport logistics. Economic Series of the Bulletin of the L.N. Gumilyov ENU. 2020,-№3, -pp.127-138
11. Goloskokov V. Osobennosti innovacionnoj logistiki i ee primenenie v sfere zheleznodorozhnogo transporta [Features of innovative logistics and its application in the field of railway transport], Kreativnaya ekonomika [Creative economy]. No6, 75-82(2007). [in Russian]
12. Grawe S. Logistics innovation: a literature-based conceptual framework, International Journal of Logistics Management, 2009, -Vol 3, pp. 360-377
13. Gromovs G., Lammi M. Blockchain and internet of things require innovative approach to logistics education, Transport Problems, 2018, - No12, 23-34
14. Issaoui Y., Khiat A., Bahnasse A., Ouajji H. Smart logistics: Study of the application of blockchain technology, Procedia Computer Science, No160, 266-271(2019)
15. Logistics trend radar 2018/19: Delivering Insights Today, Creating Value Tomorrow. (2019). DHL Trend Research. [Electronic resource] Available at: https://www.dhl.com/content/dam/dhl/global/core/documents/pdf/glo-core-trend-radar-widescreen.pdf (Accessed: 15.02.2020).

16. Madakam S., Ramaswamy R., Siddharth T. Internet of Things (IoT): A Literature Review, Journal of Computera and Communications, No3, 164-173(2015).
17. Merenkov A. Industry 4.0: German experience of digital transport and logistics development, Management, 18(4), 17-21(2017).
18. Muñuzuri J., Onieva L., Cortés P., Guadix J. Using IoT data and applications to improve port-based intermodal supply chains, Computers & Industrial Engineering, No139, P. 1056 (2020). Foreign experience in implementing and applying innovations in transport logistics
19. Mozharova V. Transport v Kazahstane: sovremennaya situaciya, problem i perspektivy razvitiya [Transport in Kazakhstan: current situation, problems and development prospects] (Almaty, KISI pri Prezidente RK, 2011, 216 p.).
20. Navickas V., Gružauskas V. Big Data Concept in the Food Supply Chain: Small Markets Case // Scientific Annals of Economics and Business. –2016. –No 63(1). –P. 15-28.
21. Overview of transport and logistics development trends in 2019. PwC Central and Eastern Europe Report, 2019. [Electronic resource] Available at: https://www.pwc.ru/ru/. (Accessed: 27.03.2020).
22. Pruemper W., Butz C.: „Der Internal 4PL – Best Practice „Metro Group“, in: „Supply Chain Steuerung und Services – Logistik-Dienstleister managen globale Netzwerke – Best Practices“, Springer-Verlag, 2004.
23. Tian E., Aksentievič S., Ivanić K., Jardas M. Blockchain Technology Implementation in Logistics, Sustainability, 2019, -No11, P. 1185
24. Tomoya K. , Shinya H., Huy Tan L. The Impact of Information and Communication Technology on Performance of Logistics Service Providers in Vietnam. International Journal of Management, Economics and Social Sciences, 2017, -№1, -pp.1-9
25. Titova Z. Puti razvitiya transportnoi sfery v mirovoi ekonomike [Ways to develop the transport sector in the world economy], Kreativnaya ekonomika [Creative economy], 94(10), 116-127(2014). [in Russian]
26. Zhakov V., Filimonova Z. Mirovoi opyt realizacii logisticheskih tehnologii i ego primenenie dlya povyshenia konkurentosposobnosti transportnyh uslug [Global experience in implementing logistics technologies and its application to improve the competitiveness of transport services], Transportnoe delo Rossii [Transport business in Russia], No6, 49-53(2017). [in Russian]
27. Witkowski K. Internet of Things, Big Data, Industry 4.0 – Innovative Solutions in Logistics and Supply Chains Management, Procedia Engineering, 2017. -No182, 763-769
28. http://edoc.bseu.by:8080/bitstream/edoc/85235/1/Frishchin_200_202.pdf
29. http://nizrp.narod.ru/metod/kafeconiorgpr/1645400861.pdf
30. https://www.shipbob.com/blog/logistics-innovations/

**Вилаят Исмайлов**
**Сандур Исмаил**

## МЕТОДИКА ОЦЕНКИ ИННОВАЦИОННОЙ ЛОГИСТИЧЕСКОЙ СИСТЕМЫ

***Резюме***

*Инновации в любой сфере характеризуют процесс получения технологтческой навизны на основе научных знаний. Поэтому инновационный процесс носит циклический характер. Инновационный процесс осуществляется поэтапно, а не напрямую. В* ***исследовательской работе речь идет*** *о семи этапах реализации инновационного процесса. Показано, что в современном Азербайджане существует необходимость перехода к инновационной стратегии развития логистики. А переход на эту стратегию становится глобальной проблемой в этой области. Развитие инновационных логистических технологий позволяют обрабатывать большие объемы данных и расширяют перспективы использования информационно-аналитических центров логистических провайдеров.*

doi.org/10.61764/lasr.1.2024.40-51

*В исследовании рассматриваются классификационные характеристики и особенности логистических инноваций, синтез базовой и инновационной логистики и др. Определено, что базовая и инновационная логистика в первую очередь дополняют друг друга, но в то же время между ними существует противоречие. Только оптимальное решение всего комплекса задач взаимного управления позволяет достичь* ***поставленных целей.*** *Поскольку только логистическая система способна окупить все логистические затраты и обеспечить наивысшую эффективность. Отмечены вопросы, связанные с целесообразностью использования инновационной логистики.*

*Регулярно Всемирный Банк рассчитывает и представляет последовательность стран мира в рейтинге, отражающем эффективность логистической системы. Индекс логистической эффективности, который определяет эта организация, является уникальным инструментом сравнительного анализа, который измеряет гибкость логистических систем с данными по 140 странам в 2023 году. Индекс состоит из шести компонентов - таможенной оценки, оценки инфраструктуры, оценки простоты транспортировки, оценки качества логистических услуг, оценки своевременности и отслеживания.*

*Стратегическим показателем инновационного развития в рыночных условиях для стран бывшего Советского Союза, в том числе и Закавказья, считается создание национальной инновационной системы. Национальная инновационная система* ***обеспечит определение инновационных приоритетов****, формирование и реализацию государственных программ развития инновационной логистики и стимулирования инновационной деятельности.*

***Ключевые слова****: инновационная логистика, виды, индекс логистической эффективности, развитие инновационной логистики*

**Vilayət İsmayılov**
**Sandur İsmayıl**

## İNNOVATİV LOGİSTİKA SİSTEMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ METODOLOGİYASI

### *Xülasə*

*İstənilən sferada innovasiya elmi biliklərə əsaslanan yeniliyin əldə edilməsi prosesini özündə xarakterizə edir. Odur ki, innovasiya prosesi tsiklik xarakter daşıyır. İnnovasiya prosesi birbaşa deyil mərhələlərlə həyata keçirilir.* ***Tədqiqat işində innovasiya prosesinin*** *yeddi mərhələli həyata keçirilməsindən bəhs olunur. Qeyd edilir ki, müasir Azərbaycanda logistikanın innovativ inkişaf strategiyasına keçid zərurəti mövcuddur. Bu strategiyaya keçid isə həmin sahədə qlobal problemə çevrilir. İnnovativ logistika texnologiyalarının inkişafı böyük həcmdə məlumatların işlənməsinə imkan verir və logistika təminatçılarının informasiya və analitik mərkəzlərindən istifadə perspektivlərini genişləndirir.*

*Tədqiqatda logistika yeniliklərinin təsnifat xüsusiyyətləri, növləri, əsas və innovativ logistikanın sintezi və s. məsələlər geniş araşdırılır. Əsas və innovativ logistikanın ilk növbədə birbirini tamamladığı, eyni zamanda aralarında bir ziddiyyət olduğu müəyyən edilmişdir. Qarşılıqlı idarəetmə problemlərinin bütün kompleksinin yalnız* ***optimal həlli məqsədlərə*** *çatmağa imkan verir. Çünki yalnız logistika sistemi bütün logistika xərclərini ödəyə və ən yüksək səmərəliliyi təmin edə bilər. İnnovativ logistikadan istifadənin məqsədəuyğunluğu ilə bağlı məsələlər qeyd olunub.*

*Mütəmadi olaraq Dünya Bankı logistik sistemin səmərəliliyini əks etdirən reytinqdə ölkələrin sıralanmasını hesablayır və təqdim edir. Bu təşkilatın müəyyənləşdirdiyi logistik səmərəlilik indeksi, 2023-cü ildə 140-cü ölkə üçün məlumatları olan logistika sistemlərinin rahatlığını ölçən unikal bir müqayisə vasitəsidir. İndeks altı komponentdən ibarətdir - Gömrük qiymətləndirməsi, infrastrukturun qiymətləndirilməsi, nəqliyyatın asanlığının qiymətləndirilməsi, logistika xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi, vaxtında qiymətləndirmə və izləmə.*

doi.org/10.61764/lasr.1.2024.40-51

*Keşmiş sovetlər ittifaqı ölkələri, o cümlədən Zaqafqaziya ölkələri üçün bazar şəraitində innovativ inkişafın strateji göstəricisi milli innovasiya sisteminin yaradılması hesab edilir.Milli innovasiya sistemi* ***innovativ prioritetlərin*** *müəyyənləşdirilməsini, innovativ logistikanın inkişafı və innovativ fəaliyyətin stimullaşdırılması üçün dövlət proqramlarının formalaşdırılmasını və həyata keçirilməsini təmin edəcəkdir.*

***Açar sözlər:*** *innovativ logistika, növləri, logistika səmərəliliyi indeksi, innovativ logistikanın inkişafı*

doi.org/10.61764/lasr.1.2024.52-75

**JEL Codes: A10, E60, E70, H00; H53; H55; I30; I31; I32; I38**

**Emin Əlirzayev**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), **Azərbaycan,** i.ü. f.d.*
*Dövlət Sosial Müdafiə Fondu, Maliyyə departamenti*
*alirzayev@gmail.com*
*ORCID: https://orcid.org/0000-0001-8622-6905*

# SOSİAL MÜDAFİƏNİN TƏŞKİLİNİN PRİNSİPLƏRİ VƏ AZƏRBAYCANIN SOSİAL MÜDAFİƏ SİSTEMİNDƏ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

***Xülasə***

*Məqalədə qloballaşma şəraitində sosial müdafiə sistemləri qarşısında davamlı olaraq formalaşan sosial müdafiənin təşkili problemləri kontekstində sosial müdafiənin təşkili ilə bağlı prinsiplərin sistemə təsirinin əsas xüsusiyyətlərinin elmi-nəzəri əsasları, o cümlədən Azərbaycan Respublikasında sosial müdafiənin təkmilləşdirilməsi mexanizmi kimi onun təşkili və idarə olunması müstəvisində sosial müdafiənin təşkilinə prinsipial mövqedən yanaşmanın inkişaf baxımından əhəmiyyətinin, aktual problemlərinin, tətbiqi imkanlarının və perspektiv istiqamətlərinin təhlili aparılır.*

***Tədqiqatın obyektini*** – son hədəfi Azərbaycanda əhalinin sosial rifahının yüksəldilməsi olan sosial müdafiə sisteminin tənzimlənməsi, predmetini – sosial müdafiənin təşkili və idarə olunmasında sosial müdafiə prinsiplərinin prioritetlik baxımından müəyyən olunaraq gözlənilməsi, həmin prinsiplərin sosial müdafiənin effektivliyin yüksəldilməsi məqsədilə dəyərləndirilməsi və tətbiqi imkanlarının öyrənilməsi, ***məqsədini*** – sosial müdafiə sisteminin inkişafı və əhalinin sosial müdafiəsinin keyfiyyətcə daha da yaxşılaşdırılması istiqamətində sistemli və elmi-nəzəri əsaslandırılmış təkmilləşdirilmə istiqamətlərinin verilməsi, tədiqat işinin elmi yeniliyini – milli sosial müdafiə modeli kontekstində Azərbaycanda sosial müdafiənin hazırkı inkişafı səviyyəsində sosial müdafiə ehtiyaclarının daha sürətlə dəyişməsi və formalaşması şəraitində təkmilləşdirilməsi istiqamətləri ilə bağlı sistemləşdirilmiş elmi-nəzəri yanaşmaların irəli sürülməsi təşkil edir.

Məqalədə öyrənilən dərslər nəzərə alınmaqla sosial müdafiə proqramlarının işlənilməsində sosial müdafiənin təşkili prinsiplərinin aktuallıq baxımından müəyyən edilməsi və tətbiqinin (gözlənilməsinin) sosial müdafiə sistemi çərçivəsində mahiyyəti, əhəmiyyəti və rolu dəyərləndirilməklə, ölkənin sosial müdafiə sisteminin inkişafına təsiri imkanları nəzərdən keçirilir, perspektivə hesablanmış qərarların verilməsi üçün konseptual baxış formalaşdırılır.

Hesab edilir ki, Azərbaycanda formalaşmış sosial müdafiə infrastrukturu və əlaqədar normativ baza və idarəetmə təcrübəsindən çıxış edərək irəli sürülən nəzəri əsaslar Azərbaycanın sosial müdafiə sisteminin inkişafı istiqamətində milli sosial müdafiə modeli prizmasından prioritetlik nöqteyi-nəzərdən metodoloji yanaşmaların və islahatların işlənilməsində praktiki əhəmiyyət kəsb etməkdədir.

***Açar sözlər:*** *sosial müdafiə, sosial müdafiə prinsipləri, sosial müdafiənin təşkilinin prinsipləri, sosial rifah, sosial təminat*

doi.org/10.61764/lasr.1.2024.52-75

**Giriş**

Davamlı proses olan sosial müdafiənin təşkilində sosial müdafiənin mahiyyətinə uyğun olaraq onun məqsədlərinə nail olunması üçün sistemli olaraq sosial müdafiənin təşkili prinsiplərinin müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir.

Sosial müdafiənin təşkili prinsiplərini sosial müdafiənin təşkili ilə bağlı əsas meyarlar mahiyyətində milli sosial-iqtisadi modellər çərçivəsində sosial müdafiə islahatlarının nəticəliliyi ilə bağlı gözlənilməsi vacib olan şərtləri və hədəflənən istiqamətləri, çərçivələri, əsas inkişaf konturlarını və prioritetləri müəyyən etməyə imkan verən istiqamətlərin məcmusu kimi başa düşmək olar.

Lokal şəraitdə yerli xüsusiyyətlərdən və xronoloji proseslərdən asılı olaraq işlənilən sosial müdafiə siyasətlərində sosial müdafiənin təşkili prinsiplərinin məzmunca yenidən formalaşması və prioritetlik xüsusiyyətlərini dəyişməsi baş verir.

Sosial müdafiənin təşkili ilə bağlı prinsiplərə elmi-nəzəri baxış isə sosial müdafiənin özünün qlobal tarixi inkişafı prosesi nəticəsində real təcrübə mühitində formalaşır. Bu prinsiplər çoxluğuna müxtəlif elm sahələri prizmasından baxılması mümkün olsa da, sosial müdafiənin əsasən iqtisadi əhəmiyyətli kateqoriya olmasından irəli gələrək sosial müdafiənin təşkili ilə bağlı prinsiplərin tədqiqinə sistemli və elmi yanaşma zərurəti daha çox iqtisadi əhəmiyyət kəsb edir.

Araşdırmalarımız onu deməyə imkan verir ki, azərbaycandilli mənbələrdə iqtisadi müstəvidə sosial müdafiənin təşkilinə prinsipial mövqedən elmi yanaşılmaqla onun sistemli tədqiqinə, o cümlədən Azərbaycan Respublikası kontekstində dəyərləndirilməsinə hələlik yer yerilməmişdir. Həmçinin ingilisdilli mənbələrdə də ayrı-ayrı prinsiplərlə bağlı yazılara rast gəlinsə də, bu mövzuya kompleks baxılması müşahidə edilməməkdədir. Daha çox rusdilli mənbələrdə, qismən də türkdilli məbnələrdə bu mövzuya dair daha çox hüquqi aspektdən yazılmış məqalələrə rast gəlinməkdədir.

Eyni zamanda Azərbaycan sosial müdafiə sisteminin inkişafı prosesində strateji inkişaf istiqamətlərinin müəyənləşdirilməsi üçün isə sistemdə qəbul edilən qərar və proqram xarakterli bütün tədbirlərin effektivliyinin və məqsədəuyğunluğunun dəyərləndirilməsi üçün meyar rolunda çıxış edən – sosial müdafiənin təşkili prinsiplərinin iqtisadi prizmadan elmi-nəzəri tədqiqi milli sosial inkişaf məqsədləri baxımından mühüm əhəmiyyət kəsb etməkdədir.

**Material və metodlar**

Məqalənin işlənilməsində təhlillərin aparılması ilk növbədə seçilən problemin məzmunundan irəli gəlməklə mövcud olan aidiyyəti milli iqtisadi-normativ baza əsasında müəyyən edilmiş istiqamətlər və tələblərdən çıxışa əsaslanır. Fikirlərin irəli sürülməsində elmi-nəzəri tədqiqat metodlarından əsasən empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına, eyni zamanda qoyulan problemlər üzrə suallara aydınlıq gətirilməsi məqsədilə müxtəlif informasiya və məlumatlardan, göstəricilərdən istifadəyə, zəruri hallarda statistik yanaşma metodologiyalarına əsaslanılmışdır.

**Müzakirə**

**1. Sosial müdafiədə sosial müdafiə prinsiplərinin xüsusiyyətləri**

Sosial müdafiənin təşkili konkret idarəetmə prosesində mühit və zaman şəraitində verilən istənilən qərarlarla bağlı məsələlərdə bütün halllarda əhali ehtiyaclarının qarşılanması və sosial müdafiə hüquqlarının təmin olunması istiqamətində sosial müdafiənin təşkili ilə bağlı prioritetlik dərəcəsindən asılı olmayaraq əsas meyarlar olaraq islahatlılığın səmərəli alınması üçün gözlənilməli şərtlər mahiyyətində dərk edilən (qəbul edilən və ya

görünən) prinsiplərin yerinə yetirilməsi vəziyyəti xüsusi məqam olaraq diqqət mərkəzində saxlanılır.

Konkret vaxt müddəti və yerli mühitdən asılı olaraq sosial müdafiənin təşkili prinsiplərinin fərqlənməsi və əhəmiyyətlilik dərəcəsinə görə fərqlənməsi qəbuledilən xüsusiyyət kəsb edir.

Sosial müdafiənin təşkili prinsiplərinin ayırd edilməsi sosial müdafiə proqramlarının işlənilməsində seçilən kontekstdə müəyyən edilən hədəflərdən asılı olaraq beynəlxalq ədəbiyyatlarda əsasən bəzi prinsip istiqamətləri baxımından oxşarlıq göstərsə də, yerli xüsusiyyətlərdən asılı olaraq praktikada ayrıca prinsiplər də meyarlar olaraq seçilə bilir. Bu isə o deməkdir ki, sosial müdafiə prinsiplərinin nəzərə alınması bu gün dövlət idarəetməsi səviyyəsində sosial müdafiənin təşkilinə münasibətdə bütün hallarda təxirəsalınmaz mahiyyət kəsb etməklə, sosial siyasətin formalaşdırılmasında konkret zaman aralığı (qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrlər) və məkan anlayışı daxilində dəyişən şərtlərdən asılı olaraq sosial müdafiə prinsiplərinə məqsəd və hədəflərdən asılı olaraq kompleks surətdə riayət olunmalıdır və bu zaman yanaşmada hansısa prinsipə daha çox üstünlük verilməsi yalnız prinsiplərinin həmin vaxt prioritetliyi baxımından dəyərləndirilmə aparılması ilə mümkün ola bilər.

Beynəlxalq təcrübədə də sosial müdafiənin təşkili ilə bağlı formalaşmış nəzəri əsaslar sadaladığımız məqamları mahiyyətcə ehtiva etməkdədir. Belə ki, Azərbaycanın Respublikasının da 1992-ci ildən tamhüquqlu üzv olduğu - Beynəlxalq Əmək Təşkilatı (BƏT/ing. ILO) tərəfindən 2012-ci ildə qəbul edilmiş BƏT-in sosial müdafiə standartlarına uyğun müəyyən edilmiş təlimatlara uyğun olaraq sosial müdafiənin daha yüksək səviyyələrinin mümkün qədər çox insana çatdırılması strategiyalarının bir hissəsi kimi, sosial müdafiə mərtəbələrinin tətbiqi və ya saxlanması və sosial müdafiə mərtəbələrinin tətbiqi üzrə təlimat verilməsini nəzərdə tutan tövsiyə sənədi üzv ölkələr üçün aşağıdakı prinsiplərin tətbiqini vacib hesab edir [1], [2]:

(a) sosial həmrəyliyə əsaslanan müdafiənin universallığı; (b) milli qanunvericiliklə müəyyən edilmiş müavinətlər almaq hüququ; (c) ödəmələrin adekvatlığı və proqnozlaşdırıla bilməsi; (d) ayrı-seçkiliyə yol verilməməsi, gender bərabərliyi və xüsusi ehtiyaclara cavab verilməsi; (e) qeyri-formal iqtisadiyyatda olan şəxslər də daxil olmaqla sosial inklüzivlik; (f) sosial müdafiə zəmanətləri ilə əhatə olunan insanların hüquq və ləyaqətinə hörmət; (g) hədəflərin və vaxt çərçivələrinin müəyyən edilməsi də daxil olmaqla mütərəqqi realizasiya; (h) sosial təminat sxemlərini maliyyələşdirən və onlardan faydalanan şəxslər arasında öhdəliklər və maraqlar arasında optimal tarazlığa nail olmağa çalışarkən maliyyələşmədə həmrəylik; (i) maliyyələşdirmə mexanizmləri və təminat sistemləri də daxil olmaqla, metod və yanaşmaların müxtəlifliyinin nəzərə alınması; (j) şəffaf, hesabatlı və sağlam maliyyə idarəetməsi və inzibatçılığı; (k) sosial ədalət və bərabərlik nəzərə alınmaqla maliyyə, fiskal və iqtisadi davamlılıq; (l) sosial, iqtisadi və məşğulluq siyasətləri ilə uyğunluq; (m) sosial müdafiənin həyata keçirilməsinə cavabdeh olan qurumlar arasında uyğunluq; (n) sosial təminat sistemlərinin çatdırılmasını gücləndirən yüksək keyfiyyətli dövlət xidmətləri; (o) şikayət və şikayət prosedurlarının səmərəliliyi və əlçatanlığı; (p) icranın müntəzəm monitorinqi və dövri qiymətləndirmə; (q) bütün işçilər üçün kollektiv sövdələşmə və assosiasiya azadlığına tam hörmət; və (r) işəgötürənlərin və işçilərin nümayəndəlik təşkilatları ilə üçtərəfli iştirak, habelə aidiyyəti şəxslərin digər müvafiq və nümayəndəlik təşkilatları ilə məsləhətləşmələr.

Göründüyü kimi, bu prinsiplər ümumi xarakterli olmaqla, konkret realizasiya halında milli səviyyələrdə proqramların (qanunların və s.) hazırlanması prosesində konkretlik qazanır və prioritetlik dərəcəsinə görə meyarları formalaşdırmaqla proqramların tərtibatının şəklinin, dizaynının formalaşmasını təmin edir.

Türkdilli elektron elmi resurslara müraciət nəticələri bir halda - daha konkret olaraq sosial müdafiənin sosial müdafiə prinsipləri ilə əlaqədə araşdırılmasına həsr edilmiş məqalədə sosial müdafiə ilə bağlı "çoxluq (məslək)" və "təklik (risklər)" adlı prinsiplərin ayırd edilməsini əks etdirən yanaşmanı ehtiva etməkdədir ki, qeyd edilən prinsiplər üzrə aparılmış təhlilin əsas mahiyyətini müvafiq olaraq – birincinə münasibətdə sosial müdafiənin əsasən muzdlu işlə bağlı olaraq ortaya çıxması və zamanla müxtəlif işçi kateqoriyalarını əhatə dairəsinə almaqla genişlənməsi, ikincinə münasibətdə isə - Avropa məkanında sosial müdafiənin tarixi inkişafı prosesində ilk əvvəllər müxtəlif sosial müdafiə sistemlərinin yaranması və artması ilə risklərin sayının da çoxalmasına bağlı olaraq ayrı-ayrı qurumlar və həlqələr səviyyəsində müstəqil fəaliyyət göstərən fərqli sosial müdafiə rejimlərinin vahid mərkəzdə (dövlətin idarəetməsində) birləşməsi zərurəti kəsb etməkdədir [3].

Sosial müdafiə sisteminin strukturu baxımından bənzərlik xüsusiyyətləri nəzərə alınmaqla rusdilli mənbələr üzrə axtarış nəticələri isə əsasən sosial müdafiədə prinsiplər baxımından yanaşmanın daha çox sahəvi, xüsusən də çoxsaylı yazılarla sığorta-pensiya sisteminə münasibətdə aparıldığını göstərir. Bilavasitə bu mövzu istiqamətinə həsr edilmiş yenə də azsaylı yazılar arasında Urusova.A.B. tərəfindən sosial müdafiənin əsas prinsipləri kimi, sosial ədalət, sistemlilik, komplekslik, ünvanlılıq, sosial müdafiə üzrə preventiv (xəbərdaedici) tədbirlər, sosial müdafiənin çoxsubyektliliyi kimi istiqamətlər qeyd olunur [4]. Digər bir analoji məqsədli yazıda Zanina.O.V. tərəfindən humanizm və sosial ədalət, sistemlilik, komplekslik, adaptivlik, sosial müdafiə üzrə tədbirlərin preventivliyi, çoxsubyektlilik, ünvanlılıq prinsipləri ayırd edilir, eyni zamanda fəaliyyətdə olan sistemin əks etdirilməsi üçün təfərrütlı olaraq digər (qeyd edə bilərik ki, törəmə və ya əlaqədar) prinsiplər də müəyyən olunur [5].

Ümumiyyətlə isə, beynəlxalq təcrübədə sosial müdafiəyə iqtisadi prizmadan prinsipial yanaşmanın daha çox sosial dövlət modeli məqsədlərinə uyğun elmi-araşdırılmasının aparıldığını qeyd etmək mümkündür.

Avropada sosial dövlətlərin formalaşması 19-cu əsrin ortalarından başlamışdır. 1848-ci ilin Avropa baharından sonra cəmiyyətin sabitliyini təmin edən amillərin axtarışı, "sosial məsələ"nin həlli, sinfi ziddiyyətlərin yumşaldılması bütün vətəndaşların qanun qarşısında bərabərliyi və sosial sığorta mexanizminin formalaşması prinsipləri əsasında elmi əsaslandırmaya və sosial inkişafın yeni modelinə gətirib çıxardı. Sosial dövlətin prinsiplərinin əsasını sosial sığorta mexanizminin formalaşdırılması təşkil edirdi ki, onun köməyi ilə sığorta ödənişlərinin maliyyələşdirilməsində sosial tərəfdaşlıq əsasında sosial ziddiyyətlərin hamarlanmasına cəhd edilirdi [6].

Sosial müdafiənin iqtisadi effektivliyi baxımından isə iqtisadi imkanlarla sosial-maddi imkanları arasında optimal münasibətin tapılması və ya axtarışı müasir suallardan biri olmaqla, təminatın sosial ədalətlilik prinsipi gözlənilməklə həyata keçirilməsininin daha çox vacibliyini önə çıxarmaqdadır.

Bu gün sosial müdafiə sahəsində bir çox xarici mütəxəssislərin diqqəti sosial inkişafın iqtisadi və sosial komponentləri arasında optimal tarazlığa nail olmaq üçün iqtisadi inkişafın prioritetləri ilə sosial ədalətlilik prinsipləri arasında ziddiyyətdən qaçmağa imkan verə biləcək yeni yolların tapılmasına yönəlmişdir [7].

Beynəlxalq təcrübədən də çıxış edərək milli sosial müdafiə modeli timsalında sosial müdafiədə prinsiplərin verilməsinə Azərbaycan Respublikası prizmasından yanaşmaqla sosial müdafiənin təşkili ilə bağlı əsaslanılan hədəf meyarlarını və ya prinsipləri və onların əsas mahiyyətini aşağıdakı kimi tərtib edə, ümumiləşdirə və ya təsnifləşdirə bilərik:

- ümumilik (və ya universallıq) (törəmə prinsip olaraq – müntəzəmlik, sistemlilik, komplekslik, çoxsubyektlilik, həmrəylik, könüllülük, icbarilik);
- ədalətlilik (törəmə prinsip olaraq – bərabərlik və ya sosial bərabərlik);

doi.org/10.61764/lasr.1.2024.52-75

- ünvanlılıq;
- adekvatlıq;
- adaptivlik;
- sosial məsuliyyətlilik;
- sosial inkluzivlik;
- şəffaflıq (törəmə prinsip olaraq - əlçatanlıq);
- vətəndaş məmnunluğu.

**2. Sosial müdafiənin təşkili ilə bağlı prinsiplərin konseptual dəyərləndirilməsi**

Sosial müdafiənin özünün də mahiyyətinə uyğun olaraq onun təşkili prinsiplərinin nəzəri bazasının tarixən formalaşması sənaye istehsalının inkişafı, muzdlu əməyin təmərküzləşməsi ilə bağlı işçilərin əmək və həyat fəaliyyəti ilə bağlı yaranan peşə və ya mülki müstəvidə baş verən - xəstəlik, əlillik, doğum, ölüm, əmək qəzası, peşə xəstəlikləri, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik, uşağa qulluq, əmək qabiliyyəti xüsusiyyətlərinin əsasən itirildiyi və qazanc əldə edilməsi çətinləşən və ya mümkün olmayan yaşlılıq vəziyyətinə düşmə və digər müxtəlif sosial əhəmiyyətli hadisələr zamanı onların müxtəlif gəlir kompensasiyası və ya digər təminat formalarında müdafiəsi məqsədlərilə dövlət tərəfindən həyata keçirilən tədbirlərin əsas məqsədlərinə uyğun meyarların qabarıq xüsusiyyət kəsb edərək önə çıxması mahiyyətindən qaynaqlanmışdır.

Başqa sözlə, dövlət tərəfindən sosial müdafiə siyasətinin və proqramlarının işlənilməsində əhalinin yararlanması üçün təklif edilən kompleks sosial müdafiə tədbirləri və ya imkanlarından ümumilikdə cəmiyyət və bütün sosial əhali kateqoriyalarının hüquqlar çərçivəsində öz ehtiyac və maraqlarına uyğun maksimum fayda götürməsinə imkan verə biləcək gözlənilən meyarlar sosial müdafiənin təşkili ilə bağlı prinsiplər sistemini formalaşdırmaqdadır.

Sosial müdafiənin muzdlu işlə bağlılığına işarə edən qeyd edilən bu məqamlar isə müasir şəraitdə sosial müdafiənin təşkili ilə bağlı qabaqcadan sığorta haqlarının ödənilməsi hesabına sosial müdafiəni nəzərdə tutan sığorta prinsipinə əsaslanan sosial müdafiə sistemlərinin daha çox təşəkkül tapmasını və dolayı olaraq sosial müdafiənin özünün sığorta əsaslı mahiyyətini almasını və müasir mərhələdə sosial müdafiənin təmin edilməsində sığorta prinsipinin formalaşması və əhəmiyyətinin möhkəmlənməsinə rəvac vermişdir.

Bu baxımdan, daha sadə formada desək, sosial müdafiənin təşkili ilə bağlı müəyyən mənada ümumbəşəri və qəlibləşməkdə olan prinsiplərin formalaşdığını qəbul etmək lazımdırsa da, bu prinsiplər zamana uyğun real yerli ehtiyac, hədəf və məqsədlərə uyğun olaraq daha vaciblik (prioritetlik) xüsusiyyəti göstərməklə dəyişkənlik mahiyyəti kəsb edir, eyni zamanda lokal-milli sosial müdadiə modelləri çərçivəsində fərqli (əlavə) prinsip istiqamətlərinin qəbul (müəyyən) edilməsi ilə səciyyələndirilə bilir.

Qeyd olunanlar baxımından sosial müdafiənin təşkili ilə bağlı ilk növbədə - ümumilik (və ya universallıq) və ədalətlilik prinsiplərinin mövcudluğu dərk ediləndir.

Hazırkı dünyada sosial müdafiədə sosial müdafiənin fundamental olaraq dövlət tərəfindən təmin edilən bir müdafiə mexanizmi olaraq qəbul edildiyini nəzərə alaraq, ümumilik prinsipini cəmiyyətin bütün mümkün sosial əhali qruplarını əhatə etməsi məqsədi yönündə dövlət tərəfindən fəaliyyət və təbdirlərin görülməsində gözlənilən meyar olaraq başa düşmək olar. Sosial müdafiədə ümumilik prinsipinin gözlənilməsinin əsas mahiyyətini – hazırlanılan sosial müdafiə proqramlarının əhalinin sosial müdafiə ehtiyac-larının, sosial mahiyyətli iqtisadi problemlərinin öyrənilməsilə tərtib edilməsini və bu məsələdə heç bir sosial qrupun kənarda qalmaması, eyni zamanda subyektiv olaraq önə çəkilərək resurların daha çox həmin qrupa yönəldilməməsini və beləliklə, digər sosial

qrupların imkanları çərçivəsinə müdaxilə olunmaması şəraitinin gözlənilməsi və ümumən bütün qrupların bu və ya digər dərəcədə müsbət təsirlənməsinin hədəflənilməsi təşkil etməkdədir.

Sosial müdafiənin təşkil ilə bağlı ümumilik və (və ya universallıq) prinsipindən törəmə olaraq, ilk növbədə həmçinin sosial müdafiədə müntəzəmlik prinsipini ayırmaq mümkündür. Belə ki, müasir şəraitdə sosial müdafiənin ölkələr səviyyəsində tətbiqi təcrübəsi tarixən davamlılıq şəraitində baş verdiyi üçün cəmiyyət tərəfindən də dövlətə münasibətdə, bir növ, tələbə çevrilmiş və dövlət məqsədləri içində yer alaraq onun funksiyalarından və idarəetmə mexanizmlərindən birinə çevrilməklə, həmçinin davamlı və kəsilməz proses olaraq tətbiq zəruriliyi əhəmiyyəti kəsb etmişdir.

Həmçinin bu prinsipdən törəmə olaraq kompleksililik və sistemlilik prinsiplərini də ayırmaq olar. Bu iki törəmə prinsip əslində işlənilən sosial müdafiə proqramlarının sahələrarası əlaqədə kompleks və sistemli şəkildə tədqiq edilmə, araşdırılma, problemlərin öyrənilməsi və kompleks həll yollarının axtarılması yanaşmasını ehtiva edir. Bu prinsiplər eyni zamanda sosial müdafiə sahəsinin inkişafı və idarə edilməsinin təkcə iqtisadi əsaslı problemlərlə deyil, eyni vaxtda sosial və iqtisadi münasibətlərin sosial müdafiə ilə əlaqədə olan müxtəlif sahələrindən (səhiyyə, təhsil, ictimai təhlükəsizlik, iaşə sistemi, maliyyə sistemi və s.) təsisatların inkişafı ilə bağlı olan problemlərə birgə sistemli və kompleks yanaşmada həyata keçirilməsi zərurəti ilə bağlı meyarların əhəmiyyətinə işarə etməkdədir.

Sosial müdafiədə ədalətlilik (və ya sosial ədalət) prinsipininin əsas mahiyyətini – sosial müdafiə proqramları və islahatlarının tərtibinin, işlənilməsinin və realizasiyasının ayrı-ayrı sosial qrupların və fərdlərin individual və cəmiyyət halında sosial müdafiə və təminatla bağlı hüquqlarının əmək fəaliyyətinə adekvatlıq prinsipilə qorunması və üçüncü tərəfin hüquqları dairəsinə müdaxilə edilməməsi şəraitində aparılması meyarı təşkil edir.

Sosial müdafiənin təşkil ilə bağlı ümumilik və (və ya universallıq) prinsipindən həmçinin törəmə olaraq sosial müdafiənin çoxsubyektliliyi prinsipini də ayırmaq olur. Nəzəri olaraq sosial müdafiənin həyata keçirilməsində ən böyük və əhəmiyyətli subyekt olan tərəf olaraq təkcə dövlətin deyil, eyni vaxtda öz səlahiyyətləri çərçivəsində həmkarlar ittifaqları, eyni zamanda geniş sosial-iqtisadi mənada – həmçinin işəgötürən statusunda iştirak edən sahibkarlıq subyektlərin iştirak payının olmasının nəzərə alınması (sosial müdafiə hüquqlarının qorunması, əməkhaqqı ödənilməsi, müavinət, sığorta ayırmalarının, təqaüd və s. sosial əhəmiyyətli ödəmələrin aparılmasında iştirak və s. baxımından) bu fikrə gəlməyə imkan verir. Bu prinsipin mahiyyəti eyni zamanda sosial müdafiənin təşkilində proqramları birbaşa maliyyələşdirən tərəf olan dövlətin iştirakı ilə yanaşı, həmçinin münasibətlərə könüllülük əsasında müxtəlif təşkilatların və təsərrüfat subyektlərinin də cəlb edilmə imkanlarının qəbuledilənliyi ilə də uzlaşmaqdadır. Sosial müdafiə münasibətlərinin idarə edilməsində, başqa sözlə, dövlət-özəl-təşkilat (müəssisə)-vətəndaş tərəfdaşlığının təmin olunması yerli (milli) kontekstdə sosial müdafiədə sahələr üzrə effektivliyin dəyərləndirilməsinə, boşluqların, çatışmazlıqların, aktual çətinliklərin və digər problemlərin daha asan və tez aşkarlanmasına, buna əks nəzarət tədbirlərinin və mexanizmlərinin işlənilməsinə başlanılması üçün imkanlar açır. Qeyd edilənlər baxımından sosial müdafiədə çoxsubyektlilik prinispinin gözlənilməsi eyni zamanda bütün sosial müdafiə sistemləri üçün həmçinin kənar subyektiv problemlər yaradan mərkəzləşmə proseslərini azaltmaqla sosial müdafiəni həyata keçirən dövlət orqanları və qurumlarının da məsuliyyətliliyin artmasına, onlar üzərində ictimai nəzarətin güclənməsinə, həmçinin sistem barəsində məlumatlılıq səviyyəsinin artması ilə şəffaflığın da artmasına töhfə vermiş olur. Sosial müdafiəyə prinsipial yanaşmada bütövlükdə bütün prinsiplər arasında bu və ya digər dərəcədə qarşılıqlı əlaqə mövcud olmasına baxmayaraq, bu prinsipi ümumilik prinsipindən fərqləndirən əsas cəhət – onun hər bir islahat təşəbbüsləri zamanı bütün sosial qrupların

doi.org/10.61764/lasr.1.2024.52-75

vəziyyətinin yaxşılaşdırılmasına az və ya çox dərəcədə, lakin bütün hallarda yönəlməsi deyil, yalnız hüquqların təmin olunması çərçivəsində gözlənilməsi ilə bağlıdır. Bu məqam bu mənada sosial müdafiədə ədlətlilik prinsipinin gözlənilməsi ilə bağlı sosial müdafiə ilə normativ bazanın təkmilləşdirilməsi zərurəti arasındakı əlaqəni və ya ədalətlilik prinsipinin təmin olunmasında normativ bazanın əhəmiyyətini ortaya çıxarır.

Bəzi hallarda sosial müdafiənin təşkili ilə bağlı *bərabərlik* və ya *sosial bərabərlik* prinsipindən də bəhs edilməsinə rast gəlinir. Lakin hesab etmək olar ki, ədalətlilik prinsipi daha geniş anlayış olmaqla həmçinin özündə sosial bərabərlik prinsipini də ehtiva edir. Bu baxımdan bərabərlik prinsipini ədalətlilik prinsipinin törəməsi olaraq qəbul edilməsinin daha məqsədəmüvafiq olduğu fikrindəyik. Bu prinsip sosial müdafiədə maddi-texniki və maliyyə imkanlarının regional yerləşmə, etnik, gender, irqi, dini, mədəni və didər xüsusiyətlərindən asılı olmayaraq sosial müdafiə zəmanətləri və təminat formaları ilə əhatə olunmada əmək fəaliyyətinə münasibətin nəzərə alınmasına, diskriminasiyaya yol verilməsini, sosial ehtiyacların həssaslığı və təxirəsalınmazlığına (gəlir, fiziki sağlamlıq və s. aspektlərdən) görə rasional istifadə edilməsinin gözlənilməsini ifadə edir.

Azərbaycanın coğrafi mövqeyi, təbii ehtiyatları, müasir infrastrukturu və iqtisadi inkişafı, xarici şirkətlərin ölkəyə marağını artırır. Azərbaycanın regionda və dünya

iqtisadiyyatında əlverişli mövqeyi, ticarət əməliyyatlarının genişlənməsinə və ölkənin müstəqil iqtisadiyyatının güclənməsinə kömək edir.

2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artmışdır. ÜDM istehsalının 40,5 faizi sənaye, 10,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 5,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 18,6 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 12114,5 manata bərabər olmuşdur [7].

2024-cü ilin yanvar ayında ölkədə 9131,0 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,0 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 12,3 faiz artmışdır. ÜDM istehsalının 41,9 faizi sənaye, 10,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,8 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,8 faizi informasiya və rabitə, 1,7 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 17,8 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 896,7 manata bərabər olmuşdur [7].

İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, neft-qaz sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, ölkənin iqtisadiyyatının çeşidlənməsinin və rəqabətqabiliyyətinin artırılmasına dəstək verir. Bu sahədəki irəliləyişlər, Azərbaycanın iqtisadiyyatının və ÜDM-unun dəyərindəki artımın əsasını təşkil edir.




**Qrafik.** Qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin sahələr üzrə bölgüsü
*Mənbə:* [5] əsasında müəllif tərtib etmişdir

Bununla birlikdə, qlobal rəqabət qabiliyyətinin artırılması və reytinqin yüksəlməsi, Azərbaycanın gələcəkdəki inkişaf perspektivlərini də dəstəkləyir. Son illərdə ölkə ÜDM-u, adambaşına ÜDM-un həcmi və qeyri-neft sektoru ciddi artım göstərmişdir. Bu, ölkədəki iqtisadi artımın yüksək səviyyədə olduğunu və milli iqtisadiyyatın inkişafının istiqrarlı şəkildə davam etdiyini göstərir.

Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyəti, inkişaf perspektivləri və qlobal reytinqdəki yüksəliş, ölkənin inkişafını dəstəkləyən strateji və tədbirlərin nəticəsidir. Bu

irəliləyişlər, Azərbaycanın dünya iqtisadiyyatında daha güclü və müvəffəqiyyətli bir rol oynamaq üçün əsaslı addımlardır.

Ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması, yaxud qeyri-neft sektorunun inkişafı, ciddi və sistemli investisiyaların səviyyəsindən asılı olaraq reallaşır. 2004-2013-cü illərdə qoyulan investisiyaların 12.9 dəfə artması və ölkə regionlarına yönələn investisiyaların həcmi 51 milyard manata çatması, ölkənin iqtisadiyyatının diversifikasiyalaşdırılmasına dair ciddi potensialı ortaya qoyur.

Azərbaycan iqtisadiyyatının son 10 ildəki inkişaf tendensiyaları ölkənin sürətli inkişaf etdiyini və bir çox sektorların gücləndiyini göstərir. Bu, öz növbəsində Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına da təsir edir. Prezident İlham Əliyevin giriş və yekun nitqlərində də qeyd edildiyi kimi, son 10 il ərzində Azərbaycan dünya ən sürətli inkişaf edən ölkələrdən biri olmuşdur. İqtisadiyyatın 3.4 dəfə, sənaye istehsalının 2.7 dəfə, kənd təsərrüfatının 1.5 dəfə artması və 2013-cü ildə qeyri-neft sektorunun artımının təxminən 10% olması müsbət nəticələrdir.

2023-cü ilin 4 ayında ölkə iqtisadiyyatının qeyri-neft sektorunda 3,1 faiz ar-tım qeydə alınıb. Bununla belə, Dünya Bankının proqnozlarına görə, cari ilin so-nunadək ÜDM-də qeyri-neft sektorunun payının 3 faizdən çox olacağı gözlənilir [3].

Ümumiyyətlə, ölkənin uğurlu inkişafı böyük nisbətdə qeyri-neft sənayesinin hesabına olmuşdur. Qeyri-neft sektorunun potensialının gücləndirilməsi və ixrac strukturunun genişləndirilməsi də dövlət dəstəyi ilə reallaşır. Lakin, tədqiqatlar göstərir ki, hələ də qeyri-neft sektorunun mövcüd vəziyyəti, inkişaf tempi reallığı əks etdirmir. Bu səbəbdən, daha optimal həll yollarının axtarılması və tədbirlərin təkmilləşdirilməsi, sektorun daha da inkişaf etməsi üçün əhəmiyyətlidir.

Ölkə başçısı İlham Əliyevin verdiyi sərəncamlar və fərmanlarla qeyri-neft sektorunun inkişafının qurulması və şaxələndirilməsi üçün ciddi addımlar atılmış və müvafiq qərarlar qəbul edilmişdir. Prezidentin bu sahədəki müraciəti, qeyri-neft sektorunun və kənd təsərrüfatının ölkənin gələcəyini təyin edən əhəmiyyətli amillər olduğunu vurğulamışdır.

İlham Əliyevin ifadələrinə əsasən, neft amilinin inkişafı ilə yanaşı, qeyri-neft sektoru da Azərbaycana böyük valyuta ehtiyatları gətirəcəkdir. Bu səbəbdən, ölkənin siyasəti neft amilini bir kənara qoymadan, həm də qeyri-neft sektorunun şəxsiyyətini və potensialını nəzərə almalıdır. İqtisadiyyatın bütün sahələri, xüsusilə də qeyri-neft sektoru və infrastruktur, inkişaf etməlidir ki, bu, Azərbaycanın inkişafını təmin edə bilsin.

**Nəticə**

Dünya təsərrüfat sisteminin müasir vəziyyəti, beynəlxalq ticarətin genişlənməsini və inkişafını təmin edən dinamik bir prosesdir. Ölkələr arasında ticarət iqtisadi əlaqələri dinamik şəkildə dəyişir və qlobal bazarın tələb və təklif strukturları hər il daha da dəyişir. Bu dəyişikliklər, ölkələr arasında daha geniş bir inteqrasiya və liberalizasiya dövrünü təmin edir.

Hazırki dövrdə qloballaşmanın dərinləşməsi, inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatına daha sıx inteqrasiyasını təmin edir. Bu ölkələrin iqtisadi artım sürətləri artır, həyat səviyyələri yüksəlir və milli iqtisadiyyatın texnoloji-struktur göstəriciləri də qlobal standartlara yaxınlaşır.

Bu növ ölkələrdə iqtisadiyyatın iki əsas sektora bölünməsi müşahidə olunur. Bir tərəfdə, dünya bazarının tələb və təklif strukturuna uyğun sürətdə artan və böyük gəlir əldə edən xammal hasilatı və onunla əlaqəli sahələr yer alır. Digər tərəfdə isə köhnə texnologiyalardan istifadə edən, dünya bazarında konkurentlik qazanmaq imkanlarına malik olmayan, hətta yerli bazarlarda da zəif mövqeləri olan qeyri-xammal, yəni emal sektoru yer alır.

Bu iki sektor arasında müasir iqtisadiyyatlarda müsbət bir qələbə fərqinə səbəb olur və bu durum, bəzi ölkələrin tənəzzül prosesindən uzaq olmasına yardım edir. Lakin, iqtisadiyyatın bu sektorlaşması, qlobal iqtisadiyyatın təkmilləşməsi və hər bir ölkənin inkişafı üçün gələcəkdə təhlükələr yarada bilər. Bu səbəbdən, inkişaf strategiyalarında bu sektorlaşmanın nəticələrinə diqqət yetirmək vacibdir.

Dünya iqtisadiyyatına daha sıx inteqrasiya prosesləri milli iqtisadiyyatımızın dünya iqtisadiyyatının ayrılmaz bir hissəsinə çevrilməsini təmin edir. Azərbaycanın neft və qeyri-neft sektorlarında müqayisəli üstünlükləri olması, beynəlxalq rəqabətə davamlı ixrac məhsulları təmin etməsi və milli iqtisadi inkişafa xidmət edəcək xarici ticarət strategiyasının qurulması, ölkənin ən aktual problemlərindən biri halına gəlmişdir.

Hazırda ölkənin ixracının 90-95 faizi neft və neft məhsullarından ibarətdir. Bundan əlavə, qarşıdakı illərdə təbii qaz ixracının da artması gözlənilir. Azərbaycanın irihəcmli karbohidrogen ixracatçısına çevrilməsi və bu sahədə daha çox valyuta ehtiyatlarının daxil olması, iqtisadiyyatın digər real sektorlarının ixrac potensialının artırılması və neft ixracından gələn valyuta ehtiyatlarının səmərəli istifadəsinin prioriteti olaraq qeyd edilir.

Beynəlxalq təcrübə və dövlətin formalaşdırdığı iqtisadi strategiya, neft ixracından daxil olan valyuta ehtiyatlarının səmərəli istifadəsinin əhəmiyyətini vurğulayır. Bu isə qeyri-neft sektorlarının inkişaf etdirilməsinin və bu sahələrin ixrac potensialının artırılmasının zəruri olduğunu göstərir.

Bu məsələyə necə və hansı yollarla həyata keçirilməsinin daha səmərəli olacağı elmi tədqiqatçıları daha çox düşündürür. Dərin elmi müzakirələr və mübahisələr bu məsələnin ətrafında formalaşır və bu yolla hər bir ölkənin xüsusi şəraitinə və iqtisadiyyatının strukturasına uyğun ən effektiv yolların tapılması üçün bir meyar kimi xidmət edir.

Ölkə iqtisadiyyatında real sektorun inkişafının təmin edilməsi üçün xarici və daxil pul axınlarının səmərəli bazar idarəetməsi əsas məqsəblərdən biridir. Bu, investisiya fəaliyyətinin tənzimlənməsində dövlətin daha çox iştirak etməsinin zəruriliyini də qeyd edir.

Dünyada baş verən son maliyyə böhranı və iqtisadi tənəzzül prosesləri milli iqtisadiyyatların rəqabətqabiliyyətini təhlükə altına salmış, iqtisadi təhlükəsizliyini təmin etmək, iqtisadi inkişaf meyarlarına yenidən baxmaq, xarici ticarətin müasir istiqamətlərinin müəyyənləşdirilməsi, daha effektiv ixrac modellərinin tətbiqinin genişləndirilməsi, ölkənin ixrac potensialının artırılması kimi global məsələlərə yeni yanaşmanın və daha müasir iqtisadi tənzimləmə mexanizmlərinin hazırlanmasının zəruriliyini qeyd edir.

Bu məsələlərə cavab olaraq milli iqtisadiyyatın hazırki vəziyyəti real qiymətləndirilməli, regional və beynəlxalq iqtisadi inkişaf tendensiyalarına uyğun və praktiki baxımdan effektiv dövlət iqtisadi siyasəti müəyyənləşdirilməlidir. Bu, iqtisadiyyatın diversifikasiyalaşdırılması prosesini dəstəkləyəcək və ölkənin ixrac potensialını artıracaq strateji dövlət iqtisadi siyasətini tətbiq etmək məsələsini də içərisinə alır.

Milli iqtisadiyyatın inkişafında xammal və təbii resurslarının istehsalı, satışı, xammal elementli ixrac modelinin təkmilləşdirilməsi və modelləşdirilməsi vacibdir. Bu bağlamda, qeyri-xammal və təbii ehtiyatlar əsaslı iqtisadi fəaliyyət istiqamətləri dəyərləndirilməlidir. Dünya təcrübəsi və fundamental araşdırmaların nəticələrinə əsaslanaraq, "qeyri-neft sektorunun inkişafı" və "qeyri-neft sektorunun ixrac potensialının artırılması" prioritetləri müəyyənləşdirilməlidir.

Qeyri-neft sektorunun ixrac potensialının stimullaşdırılması üçün dövlət dəstəyi mexanizmlərinin real iqtisadi sektorlara uyğunluğu qiymətləndirilməli və bu sahənin dövlət tənzimlənmə istiqamətlərinin təkmilləşdirilməsi vacibdir. Bu məqsədlə, iqtisadi siyasət formalaşdırılmalı və reallaşdırılması alətlərinin səmərəliliyi artırılmalıdır.

Qloballaşma şəraitində, milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin edən iqtisadi

siyasət formalaşdırılmalıdır. Bu siyasətin reallaşdırılması üçün dövlət, ixracın stimullaşdırılması və qeyri-neft ixracının strukturunun təkmilləşdirilməsi üçün effektiv alətlərə yiyələnməlidir. Bu, dövlətin milli iqtisadiyyatın çeşidlənməsinin təmin edilməsi, ixrac potensialının artırılması, və xarici ticarət əlaqələrinin effektivləşdirilməsi üçün əsas rol oynayacaq.

## Ədəbiyyat


1. Blewitt J. (2015). Understanding Sustainable Development (2nd ed.). London: Routledge. ISBN 9780415707824
2. https://azertag.az/store/files/.../_STRATEJI%20YOL%20XERITESI_.pdf
3. https://xalqqazeti.az/az/iqtisadiyyat/130260-qeyri-neft-sektoru-daha-da-genislenir
4. https://stat.gov.az/news/index.php?lang=az&id=5754
5. https://economy.gov.az/storage/files/files/678/MemNDeMHOQf2r2ncqZH4OPbQpwUR7bAcYky4BgrC.pdf
6. https://www.oilfund.az/report-and-statistics/recent-figures
7. https://www.stat.gov.az/news/index.php?lang=az&id=5784


**Пюнхан Гусейнов**

## ВЛИЯНИЕ НЕФТЯНЫХ ДОХОДОВ НА УСТОЙЧИВОЕ РАЗВИТИЕ И НЕНЕФТЯНАЯ ДИВЕРСИФИКАЦИЯ АЗЕРБАЙДЖАНА

### *Резюме*


*В статье рассматриваются основные направления расходования нефтяных доходов на обеспечение устойчивого развития Азербайджана. В результате использования нефтяных доходов в Азербайджане на трансферты в государственный бюджет, расходы на управление фондами, образование молодежи за рубежом, реализацию инфраструктурных проектов в различных областях сельского хозяйства и промышленности, устойчивое экономическое развитие вышло на качественно новый уровень. этап. Ярким примером этого является динамичное и стремительное развитие ненефтяного сектора.*

*Среди прочего, в статье показаны приоритетные направления определения перспектив устойчивого развития в Азербайджане и расходования нефтяных доходов в будущем.*

***Целью*** является изучение основных направлений и особенностей влияния нефтяных доходов и расходов на обеспечение устойчивого развития в Азербайджане.

***Методология*** – при написании статьи использовались методы статистического и сравнительного анализа.

***Результаты исследования*** - эффективное и правильное использование природных ресурсов, особенно нефтяных, расходование нефтяных доходов на ненефтяной сектор и в целом на основные направления устойчивого развития имеют особое значение для укрепления национальной экономики. В связи с этим в статье акцентируется внимание на основных направлениях устойчивого развития и подчеркивается важность развития ненефтяного сектора.


***Ключевые слова***: *нефть, нефтяной сектор, ненефтяной сектор, нефтяные доходы, устойчивое развитие, диверсификация*

doi.org/10.61764/lasr.1.2024.154-164

**Pyunkhan Huseynov**

# IMPACT OF OIL INCOME ON SUSTAINABLE DEVELOPMENT AND NON-OIL DIVERSIFICATION IN AZERBAIJAN

***Summary***

*The article examines the main directions of spending oil revenues to ensure sustainable development in Azerbaijan. As a result of the use of oil revenues in Azerbaijan for transfers to the state budget, fund management costs, the education of young people abroad, the implementation of infrastructure projects in various fields of agriculture and industry, sustainable economic development has entered a qualitatively new stage. The dynamic and rapid development of the non-oil sector is a clear example of this.*

*Among other things, the article shows the priority directions of determining sustainable development prospects in Azerbaijan and spending oil revenues in the future.*

***The purpose*** is to study the main directions and characteristics of the impact of oil revenues and expenses on ensuring sustainable development in Azerbaijan.

***Methodology*** – statistical and comparative analysis methods were used during the writing of the article.

***The results of the research*** – the efficient and correct use of natural resources, especially oil resources, spending of oil revenues on the non-oil sector and in general on the main areas of sustainable development are of particular importance for the strengthening of the national economy. In this regard, the article focuses on the main directions of sustainable development and emphasizes the importance of the development of the non-oil sector.

***Keywords****: oil, oil sector, non-oil sector, oil revenues, sustainable development, diversification*

doi.org/10.61764/lasr.1.2024.165-170

**UOT 33.336**

**Sərxan Şirinov**
*Azərbaycan Universiteti,*
***Azərbaycan***
*magistrant*
*serxanshirinov123@mail.ru*

# VERGİTUTMA SFERASINDA DÖVLƏTİN İQTİSADİ MARAQLARININ POZULMASI HALLARININ AŞKAR EDİLMƏSİ METODLARI

***Xülasə***

*Rusiya Federasiyasının vergi qanunvericiliyinin dəyişdirilməsi, vergi cinayətlərinə görə məsuliyyətin tətbiqi sahəsində vergi nəzarətinin tənzimlənməsi sistemi məsələlərinə toxunulur. Vergi sahəsində vergi inzibatçılığının problemləri nəzərdən keçirilir, habelə Rusiya Federasiyasında vergi münasibətlərinin idarə edilməsinin tətbiq olunan metodlarının gələcək inkişafı və genişləndirilməsi perspektivləri və istiqamətləri müəyyənləşdirilir.*

*Vergi qanun pozuntularına görə məsuliyyətin tənzimlənməsinin dəyişdirilməsi şəraitində vergi tənzimlənməsinin təkmilləşdirilməsi, vergi və vergi nəzarətinin səmərəliliyinin artırılması yolları təklif edilmişdir.*

***Açar sözlər:*** *vergi, vergi yoxlamaları, vergi cinayətləri, vergi idarəetməsi, vergi məsuliyyəti*

## Giriş

Vətəndaşların rifahı dövlətin öz funksiyalarrının realizə edilməsinin kəmiyyət və keyfiyyətindən, onlar isə öz növbəsidə onun sərəncamında olan vəsaitləti həcmindən əhəmiyyətli dərəcədə aslıdır. İndiki bazar iqtisadiyyatı şəraitində dövlət büdcəsinin əsas formalaşma mənbəyi gəlirlərdir.

Bütün səviyyələrdən olan büdcələrə vergi daxilolmaların həcminə təsir edən əsas amillər aşağıdakılardır:

- ölkədəki ümumi iqtisadi vəziyyət və vergi potensialı;
- vergiləri toplanma səviyyəsi;
- vergidən yayınmanın miqyası.

Vergilərin yığılma səviyyəsi və vergidən yayınmanın miqyası vergi menecmenti və mövcud qanunvericiliklə müəyyən edilir.

Vergidən yayımanın miqyası ilə vəziyyət olduqca pisdir. Belə ki, həm leqal, həm də qeyri-leqal yollarla (məsələn, ƏDV qeyri-qanunu əvəzləşdirilməsi yolu ilə) vergitutmadan yayınmalar səbəbindən büdcəyə iri məbləğdə vəsait daxil olmur.

Nəzərdən keçirdiyimiz problem hökumət tərəfindən də aktuallaşdırılmışdır.

## Vergi islahatlarının istiqamətləri

Yaxın gələcəkdə vergi islahatlarınnın aşağıdakı istiqamətləri müəyyən edilmişdir.

1. Vergi sisteminin stabilləşdirilməsi və daha şəffaflaşdırılması, təsərrüfat subyektləri və istehlakçıların iqtisadi qərarlarına münasibətdə onun neytrallıq səviyyəsinin artırılması, qanuna riayət edən vergi ödəyicilərə düşən vergi ağırlığının azaldılması və sadələşdirilməsi məqsədilə vergi qanunvericiliyinin təkmilləşdirilməsi.
2. Vergi hüquq münasibəti iştirakçılarının fəaliyyətini reqlamentləşdirən qaydaların

norma və kodlaşdırılmasının təkmilləşdirilməsi, vergi və mülki qanunvericilikdə ziddiyətlərin aradan qaldırılması.

3. Qanunvericiliyə riayət olunması üzərində sərt və operativ nəzarətin müəyyən edilməsi, kölgə iqtisadiyyatı əməliyyatlarının qarşısının alınması, vergidən yayınmağa görə ödəyicilərinlərin məsuliyyətinin artırılması.

Məhz bu səbəbdən tədqiqatd işində nəzərdən keçirilən məsələlərin əsas istiqaməti kimi aşağdakılar müəyyən edilmişdir.

- ölkə ərazisində təsərrüfat fəaliyyəti göstərən iri təşkilatların qeydiyyatı məqsədilə fiskal orqanların təşkilati strukturunun dəyişdirilməsi, yəni regional vergi orqanlarının yaradılması;
- vergi ödəyicisinin təsərrüfat fəaliyyəti haqqında onu özündən və digər mənbələrdən (dövlət və qeyi-dövlət) daxil olan informasiya axınını ümumiləşdirməklə, yaradılmış məlumat massivindəki məlumatların işlənməsi mərkəzinin yaradılması məqsədilə, vergi sistemində informasiya teznalogiyalarının inkişafının sürətləndirilməsi. Bu vergi ödəyicisi haqqında informasiyanı tam və hərtərəfli tıhlil etmək imkanı verəcək, vergi ödəyicisi kateqoriyaları tərəfindən vergi qanunvericiliyinə riayər olunmasını təmin edəcək, səyyar vergi yoxlamalarını aparılması üüçün nəzarət obyektlərinin seçılməsini optimallaşdıracaq;
- nəzərə alınmamış nağd dövriyyə ilə mübarizə – o cümlədən, hüquqi və fiziki şəxslərə VÖEN verilməsi üzərində nəzarətin gücləndirilməsi, təşkilatların bütün bank hesablarının vergi orqanlarında məcburi qeydiyyata alınması, leqal sektorda nağd pul vəsaitlərinin hərəkəti üzərində nəzarətin gücləndirilməsi, eləcə də vəsaitlərin nağd hesablaşma yolu ilə ticarət və xidmət göstərməklə kölgə sektoruna axınının qarşısının alınması, vergi orqanlarına xəbər vermədən hesabların açılmasına, saxta bank depozitləri, müştərilərin veksellərininverilməsi hallarına qarşı mübarizəyə məqsədilə, bank sisteminin fəaliyyətini tənzimləyən normativ bazanın sərtləşdirilməsi;
- vergitutma məqsədləri üçün bazar qiymətlərinin tətbiq edilməsi mexanizminin təkmilləşdirilməsi.

Problemlərin daha dərindən dərk edilməsi üçün onları tarixi aspektdə nəzərdən keçirməyə çalışaq. Müasir dövrdə vergi idarəçiliyi və vergi öhdəliklərinin düzgün və vaxtında yerinə yetirilməsi üzərində nəzarətə olan tələbat, iqtisadiyyatın inzibati-komandadan bazar formasına keçdiyi dövrdən yarandı. Həmin dövrün əsas vəzifələrindən biri əsas mənbəyi vergi daxilolmaları olan büdcə gəlirlərinin formalaşmasının bazar mexanizminin hazırlanması idi.

İndiki şəraitində qeyri-dövlət mülkiyyət formalı subyektlər yarandı ki, bu da respublikamızda maliyyə nəzarətini həyata keçirdən orqanların strukturunda əsaslı dəyişikliklər edilməsininə və xüsusi vergi orqanlarının yaradılmasına obyektiv zərurət yaratdı.

Təsərrüfat subyektlərinin sayının əhəmiyyətsiz dərəcədə az olduğu həmin dövlərdə bu vergi orqanlarının üzərinə düşən vəzifələrin həll edilməsi olduqca sadə və effektli idi (başqan-başa vergi nəzarəti həyata keçirməklə). Qanuna görə vergi xidməti bütün vergi ödəyicilərinin (tabeçiliyindən və mülkiyət formasından aslı olmayaraq müəssisələrin, təşkilatların) uçota alınmasına, vergilərin hesablanmasının düzgünlüyünün təmin olunması məqsədilə yoxlama aparılmasına görə məsuliyyət daşıyırdılar.

Beləliklə, vergi sferasında qanun pozuntularının aşkar edilməsinin effektliyi aparılmış sənədli vergi yoxlamalarının metodika və keyfiyyəti ilə müəyyən edilirdi. Bu şəraitdə maliyyə fəaliyyətinin təhlili və və digər metodlar yoxlamanın keeyfiyyətinin artırılması və onun aparılmasına sərf olunan vaxtın azaldılması vasitəsi kimi qiymətləndirilirdi.

doi.org/10.61764/lasr.1.2024.165-170

**Vergi ödəyiciləri və vergidən yayınma**

Sonrakı dövrlərdə ölkədə vergidən yayınma halları miqyasının artması, vergi ödənişindən yayınma üzrə yol verdikləri qanun pozuntularının forma və üsullarının mürəkkəbləşməsi müşahidə olunmağa başladı Bütün bunlar nəzarət tədbirlərinin keyfiyyətinin artırılmasını, tətbiq eddikləri üsul və metodların təkmilləşdirilməsini tələb edir. Vergi orqanlarının nəzarət fəaliyyəti praktikası onu göstərir ki, vergitutmadan yayındırılan gəlir və digər obyektların məbləği dəfələrlə artmışdır.

Vergidən yankeçmə hallarının kəskin artması ilə yanaşı vergi qanun pozuntuları daha mütəşəkkil və geniş xarakter almışdır. Xüsusilə büdcəyə iri məbləğdə borcu olan bir sıra müəssisələrin rəhbərləri, qanunvericilik normalarının qeyri-təkmil olmasından istifadə edərək, vasitəçi firma, törəmə kompaniyalar, kreditorlar, malsatanlar və onların məhsullarının istehlakçılarının köməkliyi ilə vergitutma obyektlərinin gizlədilməsi üçün mürəkkəb mexanimlərdən istifadə edirlər. Vergi orqanlarında uçota alınmadan, eləcə də saxta rekvizit və möhürdən isttifadə etməklə, yaxud vergi orqanlarına hesabatlar təqdim etmədən fəaliyyət göstərilməsi fakları genişyayılmışdır [142].

Dövrü nəşriyyatda vergi nəzarəti problemləri və onun səmərəliliyinin artırılması yolları intensiv olaraq müzakirə olunmağa başlandı. Deyilən bütün nəzər nöqtələri prinsipcə iki müxtəlif yanaşmanı dəsdəkləyirdi. Birinci yanaşmaya görə faktiki olaraq kameral yoxlamadan imtina olunmalı və ya onun rolunu azalmalı və müvafiq olaraq sənədli yoxlamaya üstünlük verilirdir.

Bəzi iqtisadçıların fikrincə, kameral yoxlamanın təşkilində müsbət amillərlə yanaşı bir sıra problemlər də mövcuddur. Xüsusilə, hər rüb mühasibat hesabatı və vergi haqq-hesabının yoxlanılması lazım olan müəssisələrin vergi orqanının bir əməkdaşına düşən sayı çox olan iri şəhərlərdə bu yoxlamanın aparılması çox əməktutumlu idi [1, s. 432].

Bu məsələlərin həllinə müəssisələr tərəfindən rüblük mühasibat hesabatının ləğv və yalnız illik hesabatın təqdim edilməklə nail olunur. Bu qayda bir çox ölkələrdə mövcuddur. Belə olan halda isə büdcənin bərabər tərzdə doldurulması üçün müəssisələr avans ödəmələri ödəyir və onun məbləği keçən ilin fəaliyyət nəticələrinə görə müəyyən edilir.

Problemin digər həlli yolu müəssisələr əvvəlki kimi vergi orqanlarına rüblük mühasibat hesabatı təqdim edilməsi və ildə bir dəfə yoxlanmasıdır. Lazım gəldikdə isə rüblük hesabatı yoxlanılsın (o cümlədən sənədli yoxlama zamanı).

Sənədli yoxlamalar daha effektiv nəzarət formasıdır. Belə yoxlamalar zamanı əlavə hesablanmış vergi və maliyyə sanksiyalarının məbləği, vergi orqanlarının bütün nəzarət prosesində əlavə hesadıqları məbləğin 70 % təşkil edir. Bu yoxlamaların effektivliyi yalnız keçmiş hesabat dövrləri üzrə əlavə vergi məbləğlərinin hesablanması ilə deyil, həmçinin mühasibat uçotunun aparılmasında yol verilmiş səhvlərin aradan qaldırılması sayəsində vergi öhdəlikləri vaxtında yerinə yetirilir [8, s.241].

**Vergi ödənişindən yayınmalarda dövlətin maraqları**

Vergi ödəyicisinin hesabat sənədlərinə kameral nəzarətin sadələşdirilmiş formasının qarşılığında, vergilərin hesablanmasının düzgünlüyü və vaxtında ödənilməsi üzərində güclü audit yoxlaması təmin edilməlidir. Vergi orqanlarının kənar təşkilatlarla qarşılıqlı fəaliyyəti nəticəsində vergi ödəyicisi haqqında əldə edilmiş informasiyanın iqtisadi təhlilinin aparılması və yoxlama aparılacaq vergi ödəyicisinin avtomatik seçilməsi, eləcə də vergi borclarının alınması üzrə daha effektli metodların tətbiqi məqsəddilə vergi yoxlamaları müasir informasiya texnalogiyaları ilə təmin olunmalıdır [9, c.195].

Vergi orqanlarının nəzarət işinin dəyişməsinə münasibətdə tamamilə digər yanaşma kameral yoxlamaların rolunun artırılması, səmərəliliyinin artırılması şərti ilə yoxlamaların sayının azaldılmasından ibarətdir.

Problemin həllinə birinci yanaşmaya təxminən 2001-ci ilədək həm elmi darədə, həm də vergi orqanları tərəfindən üstünlük verilirdi. Bəzi müəlliflərin fikrincə, 1995-ci illə müqayisədə 1996-cı ildə aparılmış sənədli yoxlamaların sayı nəzərə çarpacaq qədər azalmışdır ki, bu da vergi qanunvericiliyinin kütləvi şəkildə pozulduğu, gəlirlərin (mənfəətin) və digər vergituma obyektlərinin azaldıldığı şəraitdə fiskal orqanların fəaliyyətində ciddi çatışmamazlıqlar olduğunu göstərir [7, c.4].

Problemə yanaşmanın ikinci variantına 2001-2002-ci illərdən üstünlük verilməyə başlandı. Buna isə praktiki olaraq vergi orqanlarını sayının dəyişməz qalması şərti ilə ödəyicilərin sayının artması meylinin davam etməsi səbəb oldu. Digər səbəb isə yeni qəbul edilmiş Vergi Məcəlləsində vergi orqanlarına kameral yoxlamalarda sənəd və məlumatları tələb etmək, izahat almaq, şahidlər arasında sorğu aparmaq və qarşılıqlı yoxlama aparmaq hüququnun verilməsi olmuşdur.

Bəzi alimlər isə hazırda vergi orqanlarının nəzarət işinin əsas prioretetinin işin analitikliyinin artırılması, yoxlanılan obyektlərin fəaliyyətinin kompleks sistemli iqtisadi-hüquqi təhlilinin tətbiq edilməsi olduğunu əsas götürərək, bu yanaşmaya üstünlük verirlər. Onlar əsas diqqəti vergi hesabatlarının kameral yoxlanmasına yetirirlər [6, c.4].

Gələcəkdə kameral yoxlamaların vergi nəzarətinin əsas forması etməyi planlaşdırılır. Birincisi, bu kameral yoxlama vergi nəzarətinin əsas formasıdır, onun aparılmasına çəkilən əmək məsrəfi səyyar yoxlamaya münasibətdə nisbərən azdır və avtomatlaşdırılması daha asandır. İkincisi, vergi orqanları səyyar yoxlamaları vergi ödəyicilərinin cəmi 20-25 faizində apara bildiyi halda, bir qayda olaraq, nəzarətin bu növü vergi hesabatı təqdim edənlərin 100% əhatə edir.

Kameral yoxlama ikili əhəmiyyətə malikdir: birincisi, o vergi bəyannamələrinin tərtib edilməsinin düzgünlüyünə nəzarət, ikincisi isə vergi yoxlamasının aparılması üçün vergi ödəyicilərinin seçilməsi vasitəsidir. Vergi nəzarətinin daha əməktutumlu forması kimi səyyar yoxlama kameral yoxlamanın imkanları məhdud olduğu hallarda, yəni vergi müfəttişinin yoxlanılan obyektdə bilavasitə iştirak etməsi tələb olunduqda aparılmalıdır.

Son illərin praktikası göstərir ki, vahid proqram bağlı olmayan ayrı-qyrı dəyişiklikləri edilməsi yolu ilə müvcud vergi sistemindəkı çatışmamazlıqların aradan qaldırılması cəhdi perspektivsizdir. Yalnız, qüvvədə olan qanunvericilikdə və qanunverici aktların icra üsullarını açıqlayan normativ-metodiki materiallarda dəyişikliklərin edilməsi, yeni informasiya platformaları və texnoloji nproseslərin müasir aparılması sisteminin tətbiq etməklə, dövlət və vergi ödəyicilərinin yolu ilə maraqlarının tarazlaşdırılmasına yönəldilmiş vahid vergi siyasətinin keçirilməsi bu problemi aradan qaldırmaq olar.

**Nəticə**

Vergi ödəyicilərinin uçota alınması və onlar tərəfindən vergilərin ödənilməsi üzərində mövcud sistem, onların fəaliyyətinə nəzarət zamanı vergi orqanlarının imkanlarını məhdudlaşdırır, onların maliyyə vəziyyətinin manitorinqini keçirmək və tam qiymət-ləndirmək imkanı vermir. Mövcud vergi inzibatşılıq sistemi vergidən yayınmanın müxtəlif sxemlərini aşkar etmək imkanı vermir.

Vergi orqanlarının fəaliyyətindəki xüsusi problemlərdən yoxlanılan subyektin fəaliyyətinin kompleks təhlilin aparılması üçün elmi və metodik təminatının zəif olmaması, müxtəlif mənbələrdən alınmış dolayı məlumatlara əsasən faktiki vergi bazasının müəyyən edilməsi üçün elmi əsaslandırılmış metodikanın kifayət etməməsidir (bəzi hallarda olmamasıdır.

Tədqiqatın digər aktuallıq arqumenti vergi ödənişlərinin azaldılması praktikasının qarşısını ala biləcək metodikanın olmamasıdır. Bu səbəbdən fənlərarası metadalogiya və vergi sferasında pozuntuların aşkar edilməsinin effektiv metodlarının formalaşması

məsələsi ortaya çıxır. Nəzəri baxımdan onlar vergi ödənişlərinin azaldılması üçün hətta qeyri-qanunu istənilən üsul və metodlarının xoş niyyətlərlə istifadə olunduğu radikal vergi minimallaşdırılması metadalogiyasına ziddir. Onlar praktiki baxımdan vergitumadan yayınmanın mövcuq kanallarının bağlanması, vergi intizamının gücləndirilməsi və büdcəyə vəsaitlərin cəlb edilməsi üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat


1. F.Ə.Məmmədov, A.F.Musayev, M.M.Sadıqov, Z.H.Rzayev, Y.A.Kəlbiyev. Vergilər və vergiqoyma. Ali məktəblər üçün dərs vəsaiti. B.: 2006.- 432 s.
2. T.Ə.Sadıqov. Vergi uçotu və audit. Dərslik 2014.- 580 s.
3. Vergi xəbərləri jurnalı.
4. Александров И.М. Налоги и налогообложение: учеб. [Текст]/ И.М. Александров. - М.: Дашков и К, 2008.- 296 с.
5. Аникаева, Т. В. Правовая природа ответственности за совершение налоговых правонарушений//Сборник материалов XVI междунар. науч.-практ. конф. «Юриспруденция, история, социология, политология и философия». – № 3 (16). – М.:Изд. «МЦНО», 2018. – С. 123-127.
6. Гогин А.А. Теоретико-правовые вопросы налоговой ответственности: автореф. дисканд. юрид. наук. Саратов, 2002. С. 7.
7. Ефремова, Т. А. Совершенствование работы налоговых органов с налогоплательщиками в контексте модели сервисно-ориентированного налогового администрирования//Налоги. – 2017. – № 3. – С. 36-40.
8. Иксанов, Р. А., Гараев, А. Г., Янгазина, А. Э. Налоговые преступления: понятие и механизм привлечения к юридической ответственности//Международный журнал гуманитарных и естественных наук. − 2018. − № 4. − С. 267-270.
9. Мусаева, Х. М., Сиражудинова, С. И., Керимова, З. А. Добровольность уплаты налоговых платежей как показатель эффективности деятельности налоговых органов Российской Федерации//Налоги и налогообложение. – 2016. – № 11.
10. Черникова, С. В. Анализ выездных налоговых проверок: пути совершенствования и повышения результативности//Молодой ученый. – 2018. – № 16. – С. 177-179.


**Сархан Ширинов**

## МЕТОДЫ ВЫЯВЛЕНИЯ НАРУШЕНИЙ ЭКОНОМИЧЕСКИХ ИНТЕРЕСОВ ГОСУДАРСТВА В СФЕРЕ НАЛОГООБЛОЖЕНИЯ


***Резюме***

Затронуты вопросы изменения налогового законодательства Российской Федерации, системы регулирования налогового контроля в области применения ответственности за налоговые правонарушения. Рассмотрены проблемы налогового администрирования в сфере налогообложения, а также определены перспективы и направления дальнейшего развития и расширения применяемых методов управления налоговыми отношениями в Российской Федерации.

Предложены пути совершенствования налогового регулирования и повышения эффективности налогообложения и налогового контроля в условиях трансформации регулирования ответственности за налоговые правонарушения.


***Ключевые слова:*** *налогообложение, налоговые проверки, налоговые правонарушения, налоговое администрирование, налоговая ответственность*

doi.org/10.61764/lasr.1.2024.165-170

**Sarxan Shirinov**

**METHODS OF DETECTING VIOLATIONS OF THE ECONOMIC INTERESTS OF THE STATE IN THE FIELD OF TAXATION**

***Summary***

The issues of changes in the tax legislation of the Russian Federation, the system of regulation of tax control in the application of liability for tax offenses have been raised. The problems of tax administration in the sphere of taxation have been considered, as well as the prospects and directions of further development and expansion of the applied methods of management of tax relations in the Russian Federation have been determined.

The ways of improving tax regulation and improving the efficiency of taxation and tax control in the transformation of the regulation of liability for tax offenses have been offered.

***Keywords:*** *taxation, tax audits, tax offenses, tax administration, tax liability*

# YAZI QAYDALARI

1. Məqalələr **Times New Roman**, **1** interval və **12** şriftlə yazılmalıdır.
2. Parametrlər aşağıdakı qaydada olmalıdır:
   Sağ - **3**sm
   Sol - **1,5** sm
   Yuxarı - **2** sm
   Aşağı - **2** sm
3. Abzas **1** sm olmalıdır.

**Başlıq:**

Yuxarı sağ küncdə UOT kodu, sol küncdə Müəllifin **Adı, soyadı** qara verilməli, altında iş yeri, vəzifəsi, email, ORCİD, DOİ varsa *kursivlə* yazılır.

Altda ortada **12** şriftlə **qara** məqalənin adı verilir.

Altda xülasə *kursivlə* verilir, onun strukturunda - **məqsəd, metodologiya, tədqiqatın nəticəsi** olmaqla 200-250 sözdən ibarət olur və alt sətirdə **4-5 sözdən ibarət açar sözlər** verilir.

Nümunə:

**UOT 379** **Fərid Abbaszadə**

*Elm və Təhsil Nazirliyinin İqtisadiyyat institutu, doktorant*

*fabbaszada2019@gmail.com*

**YAŞIL İQTİSADİYYAT: "YENİ KONSEPSİYA VƏ YENİ İNVESTİSİYA MODELİ**

**Xülasə**

*Məqalədə yaşıl iqtisadiyyatın cəmiyyətin iqtisadi fəaliyyətində rolu, sosial investisya kimi verdiyi töhfələrin əhəmiyyəti göstərilir. .....*

***Məqsəd -*** Yaşıl iqtisadiyyatın .....

***Metodologiya*** - tədqiqat işində ....metodlardan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** - Yeni konsepsiya və yeni investisya modeli .....

***Açar sözlər:*** yaşıl iqtisadiyyat.....

Məqalənin mətni: **Giriş, 1., 2., ..bölmələr**, **Nəticə** və ədəbiyyat (ədəbiyyata istinad: [5,s.15-20] ədəbiyyat siyahısı ilə uyğun gəlməlidir)

**Ədəbiyyat**

Kitab adı:

1.Əlizadə F.K. İqtisadi artım: modellər və xüsusiyyətlər. Bakı: AƏSMA Nəşriyyatı, 2005, 198 s

Məqalə adı:

1.Əlizadə F.K. Turist axınının iqtisadiyyatın inkişafına təsiri // K.Əlizadə. ƏSM jurnalı, Bakı, 2010, №2, s.92-98

Konfrans materialı:

1. Əlizadə F.K. Qloballaşma və onun ölkə iqtisadiyyatına təsiri. AƏSMA-NIN "Heydər Əliyev Müasir Azərbaycan dövlətinin qurucusudur" mövzusunda beynəlxalq elmi-praktiki konfrans. Bakı, 5 may 2022-ci il, s.29-38
2. Xülasələr: üç azərbaycan, rus və ingilis dilində qəbul edilir.Yazı dili və ondan sonra iki dildə, məsələn azərbaycan dilində məqaləyə rus və ingilis dilində xülasə yazılır.

Nümunə:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

***Резюме***

В статье показана роль зеленой экономики в экономической деятельности.....

***Цель -***

***Методология -***

***Результаты исследования -***

***Ключевые слова***

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL**

***Summary***

The role of the green economy in the economic activity……..

***Purpose-***

***Methodology-***

***Research results-***

***Keywords:***

**MÜHÜM QEYDLƏR:**

- Bu qaydalara **uyğun yazılmayan, orfoqrafik və üslub xətaları olan məqalələr qəbul edilmir** və geri qaytarılmır.
- Məqalələr **StrikePlagiarismcom proqramında** yoxlanılır, göstəricilər uyğun olmadıqda qəbul edilmir.
- Elmi dərəcəsi olmayanlar məqalələrinə **rəhbərin imzası ilə rəy əlavə edilməsi** vacibdir.
- Bütün məqalələr **bir rəy və müzakirədən keçdiyi protokoldan çıxarış** (kağız və ya elektron) variantında tədqim edilməlidir.
- Məqalə redaksiyaya daxil olduqda **kənar və yerli** (redaksiya heyətinin tərkibindən bir nəfərə) **rəyə** göndərilir, **rəylər müsbət olduqda redaksiya heyəti çap ediılməsi** məsələsinə baxır.

## *ПРАВИЛА НАПИСАНИЯ*

1. Статьи должны быть написаны ***Times New Roman, 1*** интервалом и ***12*** шрифтами.
2. Параметры должны быть в следующем порядке:
Справа - ***3см***
Слева - ***1,5 см***
Вверх - ***2 см***
Нижний - ***2 см***
3. Абзац должен быть ***1 см.***
4. Заголовок:

В правом верхнем углу **код УДК,** в левом углу ***имя автора, фамилия*** должны быть выделены ***черным цветом,*** под ним ***курсивом,*** *место работы, должность, e-mail, ORCID, если есть DOİ.*

Внизу название статьи **черным цветом с 12** шрифтами посередине.

Внизу выделяется ***курсивом резюме,*** в его структуре-***200-250 слов*** вместе с ***целью, методологией, результатом исследования, а в нижней строке приводятся ключевые слова,*** состоящие из ***4-5 слов.***

Пример:
**УДК 379**

**Фарид Аббасзаде**
*Институт экономики Министерства науки и образования, докторант*
*fabbaszada2019@gmail.com*

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: “НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ"**

***Резюме***

*В статье показана роль зеленой экономики .....*
***Цель-***Зеленая экономика .....
***Методика-***в исследовательской работе ....были использованы методы.
***Результаты исследования-***новая концепция и новая инвестиционная модель .....
***Ключевые слова:*** зеленая экономика.....
Текст статьи***:*** **Введение, 1.,2.,..разделы,заключение и литература** (ссылки на литературу: [5, с.15-20] должен соответствовать списку литературы)
**Литература**
Название книги:
1.Ализаде Ф.К. Экономический рост: модели и особенности. Баку: издательство , 2005, 198 С.
Название статьи:
1.Ализаде Ф.К. Влияние туристского потока на развитие экономики // Ф.Ализаде. Журнал АСМ, Баку, 2010, №2, с.92-98
Материалы конференции:
1. Ализаде Ф.К. Глобализация и ее влияние на экономику страны. Международная научно-практическая конференция на тему: “Гейдар Алиев-основатель современного

Азербайджанского государства". Баку, 5 мая 2022 года, С.29-38

2. Резюме: принимаются на трех языках: азербайджанском, русском и английском. Письменный язык, а после него на двух языках, например на азербайджанском языке к статье пишется резюме на русском и английском языках.

Пример:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

**Резюме**

В статье показана роль зеленой экономики.....

**Цель-**
**Методология-**
**Результаты исследования-**
**Ключевые слова:**

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

**Summary**

The role of the green economy in the economic activity……..

***Purpose-***
***Methodology-***
***Research results-***
***Keywords:***

**ВАЖНЫЕ ЗАМЕТКИ:**

- Статьи, написанные не в соответствии с настоящими Правилами, с **орфографическими и стилистическими ошибками**, не принимаются и он не подлежит возврату.
- Статьи проверяются в программе **StrikePlagiarismcom,** если показатели не совпадают, то не принимаются.
- Тем, у кого нет ученой степени, важно, чтобы к их статьям добавили **отзывы за подписью руководителя.**
- Все статьи должны быть представлены в **виде одной рецензии и выписки из протокола** обсуждения (бумажного или электронного) .
- При поступлении статьи в редакцию она направляется **на внешнее и местное** (одному человеку из состава редакции) рецензирование, при положительных **отзывах редакция** рассматривает вопрос о публикации.

## RULES OF WRITING

1. Articles should be written in **Times New Roman,** 1 interval and **12** fonts.
2. The parameters should be in the following order:

**Right -** 3cm
**Left -** 1.5 cm
**Up -** 2 cm
**Bottom** - 2 cm

3. The paragraph should be **1** cm.
4. Title:

In the upper right corner, the **JEL** code, in the **left corner, the author's name, surname should be highlighted in black, under it in italics, place of work, position, e-mail, ORCID,** if there is a DOI.

At the bottom, the title of the article is in black with **12** fonts in the middle.

The summary is italicized at the bottom, in its structure-**200-250 words** together with the purpose, methodology, research result, and in the bottom line there are keywords consisting of **4-5 words.**

Example:

**JEL CODE A1.A13.**

**Farid Abbaszade**
*Institute of Economics of the Ministry of Science and Education, doctoral student*
*fabbaszada2019@gmail.com*

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

**Resume**

The article shows the role of the green economy .....
**Purpose** .....
**Methodology-**in the research work .... methods were used.
**Research results-**a new concept and a new investment model .....
**Keywords**: green economy.....

Text of the article: **Introduction, 1.,2.,..sections, conclusion and literature** (references to literature: [5, pp.15-20] must correspond to the list of references)

**References**

Title of the book:
1. Alizade F.K. Economic growth: models and features. Baku: Publishing House , 2005, 198 P.

Title of the article:
1. Alizade F.K. The influence of the tourist flow on the development of the economy // F.Alizade. AFM Magazine, Baku, 2010, No. 2, pp.92-98

Conference materials:
1. Alizade F.K. Globalization and its impact on the country's economy. International scientific and practical conference on the topic: "Heydar Aliyev is the founder of the modern Azerbaijani state". Baku, May 5, 2022, pp.29-38

Пример:

**Фарид Аббасзаде**

**ЗЕЛЕНАЯ ЭКОНОМИКА: «НОВАЯ КОНЦЕПЦИЯ И НОВАЯ ИНВЕСТИЦИОННАЯ МОДЕЛЬ»**

**Резюме**

В статье показана роль зеленой экономики.....

**Цель -**

**Методология -**

**Результаты исследования-**

**Ключевые слова:**

**Farid Abbaszade**

**GREEN ECONOMY: "A NEW CONCEPT AND A NEW INVESTMENT MODEL"**

**Summary**

The role of the green economy in the economic activity……..

***Purpose -***

***Methodology -***

***Research results -***

***Keywords:***

**IMPORTANT NOTES:**

**-** Articles written not in accordance with these Rules, with spelling and stylistic errors, are not accepted and it is non-refundable.

**-** Articles are checked in the **StrikePlagiarismcom** program, if the indicators do not match, they are not accepted.

**- For those who do not have an academic degree, it is important that reviews signed by the head** be added to their articles.

**-** All articles should be submitted in **the form of one review and an extract from** the discussion protocol (paper or electronic).

**-** When an article is **submitted to the editorial office, it is sent for external and local (to one person from the editorial staff)** review, with positive reviews, the editorial board considers the issue of publication.

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktik jurnal

**№ 1 (21), 2024**

Nəşriyyatın direktoru: Ş.Şəfizadə
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 11.03.2024
Çapa imzalanıb: 01.05.2024
Kağız formatı: 60x84 1/8. 22,25 ç.v.